# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Xıdırlı və Ballıca kəndləri əzəli sakinlərini qarşıladı



4

SƏS

№ 133 (7301)

30 iyul 2025-ci il.
Qiyməti 60 qəpik

# Qarabağa çəkilən yeni yollar - inkişafın mühüm göstəricisi!



2

# Avropa necə ram edildi?

*Aİ və ABŞ ticarət müharibəsindən qaçmağa çalışır*



3

## TƏQAÜD - tələbənin ümid yeri



5

## Dost: dağ da tək olanda qəribsəyir



15

## Təbiətin ağrısı, insanlığın imtahanı



6

## Azərbaycana ən çox hansı ölkələrdən avtomobil gətirilir?



16

## Rüşvət: verirlər, yoxsa alırlar?



7

# Qarabağa çəkilən yeni yollar - inkişafın mühüm göstəricisi!

Ermənistanın təcavüzünə məruz qalmış və ərazilərinin 20 faizi 30 illik işğal altında olmuş Azərbaycan 2020-ci ilin noyabrında işğala son qoyduqdan və ərazi bütövlüyünü bərqərar etdikdən sonra işğaldan azad etdiyi ərazilərinin bərpasına başlayıb. Təcavüz nəticəsində bu ərazilərdən didərgin salınmış soydaşlarımızın doğma şəhər və kəndlərinə qaytarılması üzrə Böyük Qayıdış Dövlət Proqramını həyata keçirir. Azərbaycan Hökumət Komissiyasının qiymətləndirməsinə əsasən, hərbi təcavüz və işğal Azərbaycana 150 milyard ABŞ dolları dəyərində zərər vurub. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.



## ƏHMƏDBƏYLİ-FÜZULİ-ŞUŞA YOLU

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak edib. Mövcud yolun uzunluğu 101 kilometr, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldacaq. Birinci texniki dərəcəyə uyğun olan yolun ilk 48 kilometri 6, qalan 33,7 kilometri isə 4 hərəkət zolağından ibarətdir. Yolboyu 1 qovşaq, 11 körpü, 7 tunel, 6 viaduk, yeraltı keçidlər və digər zəruri infrastruktur yaradılıb. Layihə çərçivəsində inşa edilən körpülərin ümumi uzunluğu 1557 metrdir. Viadukların bəzilərinin tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. İnşaat işləri zamanı yolboyu dəmir-beton və metal sədd çəpərlər, işıqlandırma sistemi quraşdırılıb. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşanı birləşdirir.

Qeyd edək ki, bu yol dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa olunub. Layihənin icrası daxili yol şəbəkəsinin şaxələndirilməsi, bölgə ilə respublikanın digər rayonlarının nəqliyyat əlaqəsinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Bundan başqa, bu yol beynəlxalq nəqliyyat dəhlizlərinin ölkəmizdən keçən hissəsinin də tərkibinə aid olmaqla çox mühüm rol oynayır. Yeni yol, eyni zamanda, bölgədə turizmin inkişafına və iqtisadi fəallığı artırmağa da böyük töhfə verəcək.

## XANKƏNDİ DƏMİR YOLU VƏ AVTOVAĞZAL KOMPLEKSİNİN TƏMƏLİ QOYULDU

Prezident İlham Əliyev bu yaxınlarda bölgəyə səfəri zamanı Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub. Bərdə-Ağdam dəmir yolu xəttinin davamı olan Ağdam-Xankəndi dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə 34,7 kilometrdir. Ağdam-Xankəndi dəmir yolu xətti, o cümlədən 4 körpü, 5 yolötürücü, 3 piyada keçidi, 2 suötürücü boru üzrə layihələndirmə işləri tamamlanıb. Bu dəmir yolu xətti boyunca 3 stansiyanın - Əsgəran və Xocalı stansiyalarının, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin, mühəndis qurğularının, körpülərin, yolötürücülərin, avtomobil, piyada və kənd təsərrüfatı təyinatlı keçidlərin və digər zəruri infrastrukturun tikintisi nəzərdə tutulur. Layihənin icra müddəti 2025-2026-cı illəri əhatə edəcək.




Artıq Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin layihələndirilməsinə başlanılıb. Kompleksin sahəsi 6,4 hektar təşkil edəcək. Beşmərtəbəli kompleksin ərazisində 2 dəmir yolu platformasının və 12 avtobus dayanacağının inşası nəzərdə tutulub. Kompleksin binası gözləmə zalı, bilet kassaları, tibb məntəqəsi, ana və uşaq otağı, mağazalar, restoranlar, inzibati və toplantı otaqları, uşaq əyləncə mərkəzi, açıq tipli terras və istirahət guşələrindən ibarət olacaq. Kompleksin dəmir yolu bölməsi gündəlik 800-1000 nəfər, avtovağzal isə 1000-1200 nəfər sərnişinə xidmət edəcək.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Ağdam-Xankəndi dəmir yolu 1979-cu ildə inşa olunub. Qarabağın inkişafına hər zaman böyük diqqət yetirən Ulu Öndər bu regiona dəmir yolu xətlərinin çəkilməsinə xüsusi əhəmiyyət verirdi. Bakı-Yevlax-Xankəndi dəmir yolunun açılması nəticəsində Qarabağın sosial-iqtisadi və mədəni inkişafı daha da sürətlənib.

## AZƏRBAYCANIN İQTİSADİ QÜDRƏTİNİN GÖSTƏRİCİSİ

Azərbaycan nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bütün bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi istiqamətində böyük nailiyyətlər əldə edib. Son illərin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

Təbii ki, avtomobil yolları da hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib.

## ZƏFƏR YOLUMUZ

Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. Qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.

İşğaldan azad olunan ərazilərimiz özünün yeni inkişaf mərhələsini yaşayır. Qarşıya qoyulan hədəflərə uyğun olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi bu ərazilərin dirçəlməsinə və inkişafına xidmət göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Avropa necə ram edildi?

## Aİ və ABŞ ticarət müharibəsindən qaçmağa çalışır

***Aİ və ABŞ arasında ticarət danışıqlarında həlledici günlər gəlir. Bazar günü, iyulun 27-də Avropa İttifaqında əsas xəbər ABŞ prezidenti Donald Tramp və Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen arasında Şotlandiyada söhbət olub. Onun nəticələri Amerika-Avropa ticarət müharibəsinin olub-olmayacağına qərar verə bilər. Qarşılıqlı ticarətdə balansın bərabərləşdirilməsinə dair razılaşma əldə olunmasa, Tramp avqustun 1-dən Aİ mallarına 30%-lik rüsum tətbiq edəcəyini vəd edir. Aİ-də razılaşmanın mümkünlüyünə inanmayan çoxlu skeptiklər var. Tramp artıq sübut edib ki, o, ən proqnozlaşdırıla bilən danışıqlar aparan şəxs deyil.***

Avqustun 1-nə qədər razılaşma əldə olunmasa nə olacaq? Bunu jurnalistlərə Avropa Komissiyasının mətbuat katibi Olof Gill açıq şəkildə söyləyib: Amerikanın Aİ-yə bütün idxalına 93 milyard avro məbləğində rüsum tətbiq olunacaq. Bu tədbir avqustun 7-də qüvvəyə minəcək. Gill vurğulayıb ki, Avropa Komissiyası heç bir şəkildə işləri bu nöqtəyə çatdırmaq istəmir. Onun sözlərinə görə, "bizim prioritetimiz ticarət müharibələri deyil, danışıqlardır, baxmayaraq ki, biz bütün mümkün ssenarilərə hazırlaşırıq". Trampın Şotlandiyadakı 5 günlük tətili hələ başlamazdan əvvəl qalmaqallarla əhatə olunmuşdu. ABŞ prezidentinin əleyhdarları onun inauqurasiyadan sonra Böyük Britaniyaya ilk səfərini təkcə britaniyalıların deyil, Aİ ölkələrindən gələn qonaqların da iştirak edəcəyi kütləvi etirazlarla "qeyd etmək" qərarına gəliblər. Polis onları eyni anda bir neçə şəhərdə, üstəlik Trampın iki qolf klubunda gözləyirdi. Həmişə olduğu kimi, bir anda hər şeyi prezidentə xatırlatmağa çalışırlar: onun Amerikanın daxili işlərinə dair qərarları, Britaniya siyasətinə iddia edilən müdaxilələr və təbii ki, İsrailə dəstəyi. Lakin etirazçıların əsas şikayəti təbii ki, onun avropalılarla iqtisadi təhdidlər dilində danışmaq istəməsi ilə bağlı olub.

Tramp nümayiş etdirir ki, o, həmişə ABŞ-ın ən yaxın tərəfdaşları ilə bu və ya digər şəkildə kompromis tapa biləcək. ABŞ-Avropa münasibətlərindəki problem ABŞ prezidentinin Aİ-yə bu cür baxmaması və bu, təkcə iqtisadi deyil, həm də siyasi əlaqələrə aiddir. Şotlandiyaya güclə ayaq basan Tramp avropalı müttəfiqlərinə əxlaqi mühazirə verməkdən çəkinə bilmədi. O, avropalıların alternativ enerji mənbələrinin istehsalına həvəsini və qeyri-qanuni miqrasiya ilə mübarizə üçün kifayət qədər tədbirlərini bəyənmədi. Tramp avropalıları "gözəl tarlalarınızı və dərələrinizi məhv edən və quşlarınızı öldürən" külək turbinlərindən imtina etməyə və qeyri-qanunilərin "dəhşətli işğalını" dayandırmağa çağırıb. Başqa sözlə, onları ABŞ-da özünün etməyə çalışdığını etməyə çağırdı. Təkcə bu, asan və tez razılaşma üçün yaxşı heç nə vəd etmir.

### Razılaşmaya reaksiya



Milli hökumətlər, xüsusən də Berlin və Parisdəki əsas hökumətlər Trampı güzəştə getməyə məcbur etmək üçün iqtisadi itkilərlə üzləşməyə hazır deyildilər. "Bu, hamı üçün yaxşı anlaşmadır" deyən Tramp əlavə edib ki, bu, bizi daha da yaxınlaşdıracaq. Müəyyən mənada tərəfdaşlıqdır. Von der Leyen razılaşmanı "çətin danışıqlar" yolu ilə əldə edilən "böyük sövdələşmə" kimi xarakterizə edib.

ABŞ və Avropa İttifaqının payına dünya mal və xidmətlər ticarətinin ümumi həcminin demək olar ki, üçdə biri düşür. Aİ-dən ABŞ-a mal idxalı Amerika mallarının Avropaya ixracını əhəmiyyətli dərəcədə üstələyir (2024-cü ilin məlumatlarına görə - 370 milyard dollara qarşı 606 milyard dollar) və Tramp bu kəsiri ciddi problem hesab edir. O, ABŞ və Aİ arasında razılığa gələ bilməsələr, avqustun 1-dən etibarən Avropadan idxal olunan məhsullara 30 faiz rüsum tətbiq edəcəyi ilə hədələyib.

### Aİ-nin şansı yox idi?

Bloomberg-in nəşrinə görə, bazar günü imzalanmış ABŞ ilə ticarət sazişi üzrə danışıqlara cavabdeh olan bir neçə Aİ rəsmisi bunun mümkün olan ən pis variant olduğuna inanır. Avropa Komissiyası rəsmi olaraq Aİ-nin ticarət məsələlərinə cavabdeh olsa da, onun prezidenti Ursula fon der Leyen və ABŞ prezidenti Donald Tramp arasında ABŞ-ın Avropa idxalının əksəriyyətinə 15% rüsum tətbiq edəcəyi sazişi danışıqlarçıların əl-qolunu bağlayan milli hökumətlər formalaşdırıb. Proses boyu Aİ müzakirəçilərinin üzləşdiyi əsas maneə milli hökumətlərin, xüsusən də Berlin və Parisdəki əsas hökumətlərin Trampı güzəştə getməyə məcbur etmək üçün iqtisadi itkilərlə üzləşməyə hazır olmaması idi. Von der Leyenin özü buna qarşı heç nə etmədi və AB-nin qarşılıqlı faydalı və balanslı razılaşma kimi ilkin məqsədindən tez geri çəkildi.

O, müqaviləni "əldə edə biləcəyimiz ən yaxşısı" adlandırıb. Mənbələr bildiriblər ki, bir həftə əvvəl Aİ nümayəndələrinə iki variantın olduğu bildirilib: Trampın təklif etdiyi 15%-lik tarifləri qəbul etmək və ya qisas almaq. Lakin səfirlərə xəbərdarlıq edilib ki, effektiv cavab vermək üçün Aİ birlikdə hərəkət etməyə hazır olmalı və ağrılı nəticələrə hazır olmalıdır. Üzv dövlətlər heç birinə hazır deyildilər.

Agentliyin qeyd etdiyi kimi, ABŞ-la danışıqlar zamanı Avropa paytaxtları güclü Avropa mövqeyini formalaşdırmaqdansa, ardıcıl olaraq öz milli maraqlarının qorunmasına diqqət yetirib və onların əsas sənayeləri üçün qısamüddətli riskləri minimuma endirəcək həll yolları axtarırdılar. Nəşr qeyd edir ki, bu qismən həm Almaniya kansleri Fridrix Merz, həm də prezident Emmanuel Makron iqtisadiyyata istənilən zərbəni silah kimi istifadə etməyə hazır olan sağçı populistlər tərəfindən təhlükə ilə üzləşən Almaniya və Fransanın siyasi zəifliyi ilə bağlıdır.

Digər aspekt təhlükəsizlik məsələlərində ABŞ-dan asılılıq və Trampın Rusiya təcavüzünə qarşı mübarizədə Ukraynaya dəstəyi azaltmaqla ticarət təzyiqinə cavab verə biləcəyi ilə bağlı narahatlıqlardır. Nəşr onu da bildirir ki, Avropa Komissiyası Aİ-yə üzv dövlətlərin bir sıra malların cavab rüsumları tətbiq edilən mallar siyahısından çıxarılması tələbləri ilə üzləşib. Müraciətlərin əksəriyyəti ümumi Avropa mövqeyini inkişaf etdirmək istəyindən çox milli maraqlardan irəli gəlirdi. Avropa Komissiyasının rəhbəri daha sonra jurnalistlərlə növbəti görüş keçirib. Razılaşmanın üstünlükləri arasında o, Amerika enerjisinin artan alışını vurğulayıb.

### Fransa isə...

Paris sazişi Aİ üçün "qara gün" adlandırıb. Avropa mallarına 15%-lik gömrük rüsumunun tətbiqi ilə bağlı razılaşmaya görə, avro artıq dollar qarşısında zəifləyib. Almaniya və Fransa Avropa İttifaqı ilə ABŞ arasında yeni ticarət sazişini kəskin tənqid edərək, bunun Aİ iqtisadiyyatına ciddi ziyan vura biləcəyi barədə xəbərdarlıq ediblər. Bu barədə bazar ertəsi, iyulun 28-də "The Financial Times" məlumat yayıb.

Bağlanmış sazişə əsasən, Avropadan ABŞ-a malların əksəriyyətinə 15% rüsum tətbiq olunacaq ki, bu da artıq avronun dollara nisbətdə ucuzlaşmasına səbəb olub və transatlantik ticarətin nəticələri ilə bağlı narahatlıq doğurub. Xüsusilə Almaniya kansleri Fridrix Merz bildirib ki, ABŞ prezidenti Donald Tramp və Avropa Komissiyasının sədri Ursula fon der Leyen arasında bağlanan razılaşma həm Brüssel, həm də Vaşinqton üçün təhlükə yaradır. Onun sözlərinə görə, bu, inflyasiyanı stimullaşdıra və iki qitə arasında biznes əlaqələrinə mənfi təsir göstərə bilər. "Bu, təkcə inflyasiyanın səviyyəsini artırmayacaq, həm də bütün transatlantik ticarət sisteminə zərbə vuracaq", - Merz vurğulayıb. Bazar günü elan edilən razılaşmalara əsasən, Birləşmiş Ştatlar əksər Avropa mallarına 15%-lik tariflər tətbiq edəcək, lakin bu, Donald Trampın avqustun 1-dən tətbiq edəcəyi ilə hədələdiyi 30%-dən azdır. Ursula fon der Leyen bu razılaşmanı "tarixin ən böyük ticarət sazişi" adlandırıb, çünki o, qlobal ÜDM-in demək olar ki, 44%-ni əhatə edir və ABŞ ilə Aİ arasında açıq ticarət müharibəsinin qarşısını almağa imkan verir.

### KİV ABŞ-Aİ tarif razılaşması haqqında

Aİ və ABŞ-ın tariflərlə bağlı razılığa gəldiyi xəbəri bu gün əsas xəbərdir. Bütün müşahidəçilər tarif sazişindən ABŞ prezidentinin qələbəsi kimi danışır, bəziləri isə hətta bunu Avropanın kapitulyasiyası hesab edir.

**Le Figaro (Paris, Fransa)**

*Donald Trump və Ursula von der Leyen birtəhər bir razılaşma əldə etdilər*

Yazdan bəri davam edən ticarət müharibəsi, nəhayət, bu həftəsonu ABŞ prezidentinin qolf oynamaq üçün uçduğu Turnberidə sona çatdı... Gec də olsa, avropalılar anladılar ki, "sövdələşmə"nin müzakirəsində son söz həmişə öz sosial şəbəkəsi vasitəsilə bütün dünyaya öz şərtlərini diktə etməkdən xoşbəxt olan Tramp olacaq. Brüsseldə belə qənaətə gəliblər ki, rasionallığa mərc etməyin mənası yoxdur.

**Financial Times (London, Böyük Britaniya)**

*ABŞ və Aİ ticarət müharibəsinin qarşısını almaq üçün tarif razılaşmasına nail oldular*

Razılaşma, tarifləri artırmaqla hədələyərək, aylarla Amerikanın ticarət tərəfdaşlarını ağrılı danışıqlara sövq edən Trampın qələbəsini göstərir. Lakin sazişin şərtləri Brüsselin Aİ-yə üzv dövlətlərə hazırlaşmağı tövsiyə etdiyi şeylərə uyğundur.

**Spiegel (Hamburq, Almaniya)**

*Avropa Donald Trampa təslim oldu*

Müqavilə, şübhəsiz ki, ticarət müharibəsindən daha yaxşıdır. Amma avropalılar üçün bu, kapitulyasiyadır. Sülh naminə bir vaxtlar sarsılmaz hesab etdikləri dəyər və prinsiplərdən imtina edirlər. Eyni zamanda, razılaşma Aİ-nin ABŞ-ın özünü "gömrük məmuru" adlandıranlara müqavimət göstərmək üçün nə qədər az şey edə biləcəyini nümayiş etdirir. Aİ iqtisadi cəhətdən zəifdir və hərbi cəhətdən ABŞ-dan asılıdır. Sadəcə olaraq, getdikcə aqressivləşən Rusiya ilə münaqişədə arxalandığı ölkə ilə uzunmüddətli və gözlənilməz iqtisadi müharibə aparmağa gücü çatmaz.

Bunda inanılmaz dərəcədə istehzalı bir şey var: AB-nin ən yüksək vəzifəli şəxsləri Brexitdən sonra blokun ən böyük müqaviləsini bağlamaq üçün Britaniyaya uçmalı idi. Bu, Trampın istədiyi idi və əldə etdiyi də budur... Avropa Komissiyasının sədri Ursula fon der Leyen üçün, blokun icra hakimiyyətinin rəhbərliyində ikinci müddətə çətin başlanğıcı, Aİ-nin siyasi spektrinin hər yerindən gələn tənqidləri və yüksək səviyyəli məhkəmə işinin itirilməsini nəzərə alsaq, bu, çox ehtiyac duyulan şəxsi uğurdur.

***V.VƏLİYEV***

# Xıdırlı və Ballıca kəndləri əzəli sakinlərini qarşıladı

***İşğaldan azad olunmuş torpaqlara "Böyük Qayıdış" Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlara dönüşü mərhələli olaraq davam edir. Azərbaycanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb. Ağdam rayonunun Xıdırlı kəndində 60 ailə olmaqla, 236 nəfər keçmiş məcburi köçkün doğma yurda qovuşub.***



Yenidən çiçəklənən Ağdam doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. İnsanların doğma yerlərdən səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Ağdam da da abadlıq-quruculuq meydanına çevrilib.

44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlardan birinə çevrilib. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur.

Yeni istehsal müəssisələri istismara verilib. Bildiyimiz kimi, Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın yaradılmasından məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvətərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir. Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Bunun nəticəsidir ki, Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkəmizdə mövcud sənaye zonaları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye parkıdır. Parkda ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Ağdam Sənaye Parkının ərazisinin 70 faizdən çoxu artıq sahibkarların istifadəsinə verilib. "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsinin açılması ilə Parkda fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatıb.




## MÜASİR MƏKAN

Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələri salınır. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir.

Artıq Ağdamda 2-ci yaşayış məhəllləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Əlbəttə ki, Ağdamda aparılan abadlıq-quruculuq işləri çərçivəsində şəhərin daxili yollarında aparılan işləri də qeyd etməliyik. Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

## XOCALININ GƏLƏCƏK İNKİŞAFI İLƏ BAĞLI BAŞ PLANI

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir. Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Xocalı yenidən qurulur. Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdu. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılır. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir. Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır. Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər.

## BALLICA, TƏZƏBİNƏ VƏ XANYURDU KƏNDLƏRİNDƏ 327 AİLƏ - 1433 NƏFƏR YAŞAYIR

İşğaldan azad olunmuş torpaqlara "Böyük Qayıdış" Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin qayıdışından söz açarkən bildirək ki, növbəti köç karvanlarından biri də Xocalı rayonunun Ballıca kəndinə çatıb. Bu mərhələdə Xocalı rayonunun Ballıca kəndinə 17 ailə - 62 nəfər köçürülüb. Xocalıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. "Böyük Qayıdış" Proqramı çərçivəsində bu gün Xocalının kəndlərinə həyat yenidən qayıdır. Artıq Xocalı şəhərində, Ballıca, Təzəbinə və Xanyurdu kəndlərində 327 ailə - 1433 nəfər yaşayır.

## 350-DƏN ÇOX ŞƏXS MƏŞĞULLUQ TƏDBİRLƏRİNƏ CƏLB EDİLİB

Xocalı şəhəri və Xocalının Ballıca kəndinə köçürülmüş sakinlərdən artıq 351 şəxsi məşğulluq tədbirlərinə cəlb edib. Onlardan 333 şəxsin rayon ərazisində məşğulluğu təmin edilib (o cümlədən, rayona köçürülmüş sakinlərdən 71 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatlar yaradılıb), 18 sakin isə peşə kurslarına cəlb edilib. Hazırda daha bir qrup sakinin məşğulluğuna dəstək işləri aparılır. Onların məşğulluq imkanları qiymətləndirilir və hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir.

Bu ərazilərə köçən sakinlər işlə təmin olunurlar. Xocalı kərpic zavodunun açılışı da görülən işlərin davamıdır. Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur.

Zavod üçün əsas xammal mənbəyi Xocalı şəhərinin yaxınlığında yerləşən "Xocalı" gil yatağıdır. Ümumilikdə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sənayeləşmə siyasəti sistemli və ardıcıl şəkildə aparılır. Bu məsələdə isə texnoloji modernləşmə və innovativ istehsal sahələrinin artırılması əsas prioritetlərdəndir. Bu gün Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq.

***Zümrüd BAYRAMOVA***

# TƏQAÜD - tələbənin ümid yeri

**“Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və ”Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2025-ci il tarixdə imzaladığı Sərəncam günlərdir ki, minlərlə tələbənin sevincinə səbəb olub.**




Onların hər birinin dövlətimizin başçısına, onları hər zaman düşünən, maddi-rifah hallarının qeydinə qalan, sosial vəziyyətlərini diqqətdə saxlayan dövlətimizə minnətdarlıqlarını bu sətirlərə köçürmək, təqaüdün bir tələbə üçün nə qədər böyük əhəmiyyətə malik olmasından söhbət açmaq istədim.

Bəli, indi bütün tələbələr sevinc içərisindədirlər. Çünki hələ ötən ilin sonlarından yeni ildə təqaüdlərin artırılması barədə xəbərlər yayılmışdı. Bütün tələbələr isə bunu böyük səbrsizliklə gözləyirdilər. Onlar da bütün dünyada, eləcə də ölkəmizdəki infilyasiyanı hiss edir, öz gəlirlərinin buna uyğunlaşmasını istəyirdilər.

Nəzərə alsaq ki, bütün məhsullarda qiymət artımları müşahidə olunur, deməli, tələbənin də əvvəlki təqaüdləri onların ehtiyaclarının ödənilməsində çətinlik yarada bilərdi. Bütün bunları nəzərə alan dövlətimiz isə digər vacib sahələrdə olduğu kimi, tələbə təqaüdlərinin də dövrün tələblərinə müəyyən qədər uyğunlaşdırılmasını nəzərə aldı və dövlətimizin başçısının müvafiq sərəncamı ilə bütün növ təqaüdlər artırıldı.

Dövlət başçısının sərəncamını sevinclə qarşılayan tələbələr indi artıq alacaqları məbləğə uyğun xəyal qurmaqdadırlar. Onlar öz təqaüdlərini necə, hara xərcləyəcəklərini, hansı ehtiyaclarını ödəyəcəklərini düşünməkdədirlər. Vurğulamaq yerinə düşər ki, təqaüdlərin artırılması, təbii ki, tələbələrin məsuliyyətini də artırır. O mənada ki, imtahanların nəticələrindən təqaüdün məbləği asılı olacaqdır. Bunun üçün də tələbələr imtahanlara daha yaxşı hazırlaşacaq, gecələrini gündüzlərinə qataraq imtahanların uğurla keçməsinə, yüksək qiymətlər almağa çalışacaqlar.

### Tələbənin ümid yeri...

Təqaüd tələbənin ümid yeridir. O mənada ümid yeridir ki, nə qədər ailəsi tərəfindən təmin olunsa da, hər ay bu tələbə ”maaşını” səbirsizliklə gözləyir. Bütün şəxsi ümidlərini o təqaüdə bağlayır. Təqaüd tək bu deməkdirmi? Xeyr. Bu tələbə ”maaşının” o qədər maraqlı, kövrək tərəfləri var ki... Təqaüd bəzən bir tələbənin ailəsinə köməyidir, bəzən hansısa bacı-qardaşının ehtiyacının ödənməsidir.

Təqaüd tələbənin oxumaq, təhsil almaq üçün sığındığı kirayələrin aylıq ödənişidir. Yoldaşları arasında topladıqları aylıq bazarlıq puludur. Bir miqdarını ayırıb kənara qoyduğu, nə olursa olsun, əl uzatmayacağı çörək puludur.

Təqaüd çox halda tələbələrimizin ailələrinə hansısa bir ehtiyaclarının ödənilməsi üçün yardımıdır. Atanın, ananın planlaşdırdığı hansısa bir işin reallaşmasına köməklikdir.

Təqaüd tələbənin əyin-başıdır, kitab-dəftəridir. Bu səbəbdən də onu hər ay səbrsizliklə gözləməsidir. Təqaüd o qədər şirindir, bərəkətlidir ki, sanki əlindəki pullar xərclənib gedir, lakin təqaüd xərcləndikcə bitmir ki bitmir. O bərəkət bağlayır. Tələbəni bu aydan qarşıdakı aya aparıb çıxarır. Gündəlik ehtiyaclarını ödəyir. Bir sözlə, təqaüd tələbənin yaxşı yaşaması, təminatıdır.

### İndi ödənişli əsaslarla təhsil alanlar da təqaüd alırlar

Bildiyimiz kimi, təhsil ocaqlarımızda təhsil dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir. Minlərlə tələbə təhsil ocaqlarımızda ödənişli əsaslarla təhsil alır. Dövlətimizin humanist addımlarından biri də budur ki, artıq bir neçə ildir, həmin tələbələrə də təqaüd almaq hüququ verilib. Bu isə təbii ki, ödənişli əsaslarla təhsil alan tələbələrə böyük dəstəkdir. Həqiqətən də düşünəndə ki, bir ailə övladının təhsil alması üçün xeyli məbləğdə vəsait ödəyirsə, təbii ki, onun övladının digər ehtiyaclarını ödəməkdə çətinlikləri olacaqdır. Eyni zamanda təqaüd elə bir ödəniş növüdür ki, onun hər bir gəncin tələbəlik illərində, gələcək iş həyatına hazırlanmasında, qazancını xərcləmə dərsini almasında böyük əhəmiyyəti vardır. Bütün bunları nəzərə alan dövlətimiz yeni bir ilkə imza atdı və artıq qeyd etdiyimiz kimi, ödənişli əsaslarla təhsil alan tələbələr də təqaüd ala bilirlər.

Bu, həm də tələbələr arasında bərabər hüququn təminatıdır. Müəyyən dərəcədə bal toplayan gənc əgər dövlət vəsaiti hesabına təhsil alırsa, ondan bir neçə bal aşağı toplayan tələbəyə belə təhsil almaq nəsib olmursa, təbii ki, o, ödənişli əsaslarla təhsil alır və bu, onu tələbəlik illərinin ən dəyərli, yaddaqalan məqamından-təqaüd almaqdan məhrum edə bilməzdi. Ona görə də bu sistem tətbiq olundu. Və ixtiyar verildi tələbələrin özlərinə. Onlar təhsil illərində imtahanlardan müvafiq dərəcədə keçməklə təqaüd hüququ qazandılar.

Artıq təhsil ocaqlarımızda minlərlə belə tələbə də təqaüd alır. Bu, həm də onların birbaşa məsuliyyətinə, dərslərə yaxşı hazırlaşmasına şərait yaradır. Çünki hər hansı bir imtahandan aşağı qiymət alıb ”kəsir” yaratmaq təqaüdün kəsilməsi deməkdir. Ona görə də tələbələr bu şansı əldən verməməyə çalışır və həm dərs zamanı, həm də imtahan vaxtı bunu nümayiş etdirirlər.

### Bütün tələbələrə uğurlar arzulayırıq

Ən yüksək təqaüdü almaq heç də asan başa gəlmir. Çünki bunun üçün tələbədən yüksək hazırlıq tələb olunur. Tələbəlik illərində hazırlığın səviyyəsinə görə təqaüddən-təqaüdə qalxan və enən minlərlə tələbə olur. Onlar yaxşı bilirlər ki, hansı səviyyədə oxumaqla, çalışmaqla təqaüdlərin hansına sahib ola bilərlər. Maraqlıdır ki, dövlət vəsaiti hesabına təhsil alanları bəzən ödənişli əsaslarla təhsil alanlar üstələyir, bilik və qabiliyyətləri ilə ən yüksək təqaüdü almağa nail olurlar. Yəni bunların hər biri təhsil prosesində ortaya çıxır və kimin nəyə qadir olduğunu göstərir.

Hələlik isə hər bir tələbə hazırki təqaüdünü itirməyi əsla düşünmür. Çünki söylədiyimiz kimi, təqaüd tələbənin ümid yeridir.

Bütün tələbələri təqaüdlərinin artırılması münasibətilə təbrik edir, onlara gələcək imtahanlarda uğurlar diləyir və dövlət qayğısını hər zaman yüksək qiymətləndirmələrini, dövlətimizə və dövlətçiliyimizə layiq vətəndaş olmalarını, müstəqil ölkəmizin inkişafına özünəməxsus töhfə vermələrini arzulayırıq.

***Mətanət Məmmədova***

---

*POLİTOLOQ RƏY BİLDİRDİ*

# “Diplomatik təşəbbüslər təkcə enerji və iqtisadi güc mərkəzi deyil, həm də...”

”Azərbaycanın İsrail və Suriya arasında vasitəçilik təşəbbüsü son illər ölkəmizin beynəlxalq münasibətlər sistemində artan diplomatik nüfuzunun bariz göstəricisi kimi qiymətləndirilə bilər. Münaqişə və qarşıdurmalarla dolu olan Yaxın Şərq regionunda vasitəçilik təşəbbüsü ilə çıxış etmək, təkcə siyasi iradə deyil, eyni zamanda regional güc, etimad və balanslı xarici siyasət tələb edir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.

Onun sözlərinə görə, Azərbaycanın bu prosesdə fəallıq göstərməsi onun beynəlxalq diplomatiyada daha fəal və etibarlı tərəfdaş kimi qəbul olunmağa başladığını göstərir: ”Bu təşəbbüsün arxasında bir neçə əsas geosiyasi faktor dayanır. İlk növbədə, Azərbaycan uzun müddətdir ki, balanslı və çoxşaxəli xarici siyasət yürüdür. İsraillə strateji münasibətləri, xüsusilə müdafiə və texnologiya sahəsində sıx əməkdaşlıq üzərində qurulub.



Eyni zamanda, Azərbaycan müsəlman dünyasının bir üzvü kimi Suriya və digər ərəb ölkələri ilə də diplomatik münasibətləri qoruyub saxlayır. Bu münasibətlər Azərbaycanın həm İsrail, həm də Suriya ilə əlaqə saxlayaraq neytral və etibarlı vasitəçi kimi çıxış etməsinə imkan yaradır.

Digər mühüm faktor Azərbaycanın geosiyasi mövqeyidir. Cənubi Qafqazın önəmli tranzit və enerji



dəhlizləri üzərində yerləşən Azərbaycan regionda sabitlik və əməkdaşlıqdan ən çox faydalanan ölkələrdən biridir. Yaxın Şərqdə sabitliyin təmin olunması Azərbaycanın enerji və nəqliyyat layihələrinin təhlükəsizliyi üçün də vacibdir. Bu baxımdan, Suriya ilə İsrail arasında gərginliyin azaldılması regionda ümumi təhlükəsizlik mühitinə müsbət təsir göstərə bilər. Azərbaycanın son illərdə beynəlxalq təşkilatlarda, xüsusilə Qoşulmama Hərəkatı və BMT platformalarında fəallığı onun diplomatik statusunu daha da gücləndirib. Bu təşəbbüs həm də Azərbaycanın qlobal məsələlərdə söz sahibinə çevrilmək istiqamətində atdığı addımlardan biri kimi qiymətləndirilə bilər. Sülhə və dialoqa çağırış edən bu kimi vasitəçilik missiyaları ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artırmaqla yanaşı, onun humanitar və sülhpərvər imicini də möhkəmləndirir. Azərbaycanın İsrail və Suriya arasında vasitəçilik təşəbbüsü yalnız iki ölkə arasında münasibətlərin normallaşmasına xidmət etmir, eyni zamanda Azərbaycanın regionda və beynəlxalq səviyyədə artan siyasi çəkisinin göstəricisidir. Bu cür diplomatik təşəbbüslər Azərbaycanın təkcə enerji və iqtisadi güc mərkəzi deyil, həm də sülh və sabitliyin təşviqində aparıcı aktor rolunda çıxış etdiyini bir daha təsdiqləyir”.

***Ziya Hikmətoğlu***

# Təbiətin ağrısı, insanlığın imtahanı



## Qarabağda yanğınla mübarizədə dövlətin səfərbərliyi... və dünya təcrübəsində təbiət fəlakətləri...

Dünya son onilliklərdə ekoloji fəlakətlərin, xüsusən də meşə yanğınlarının artmasına şahidlik edir. Qlobal istiləşmə, insan amili və hərbi münaqişələrin yaratdığı təhlükələr nəticəsində yer kürəsinin "yaşıl ciyərləri" bir-bir məhv olur. Bu gün Azərbaycanın Qarabağ bölgəsində baş verən yanğınlar təkcə regional deyil, həm də ekosistemə müdaxiləyə qarşı qlobal çağırış, ekoloji təhlükənin yaratdığı fəsadların aradan qaldırılmasında dünyanın birgə mübarizəsinə çevrilməlidir.



*Yusif QULİYEV*



## Qarabağda alov və mina terrorunun yaratdığı cəngəllik

Son həftələrdə Qarabağda, xüsusilə də keçmiş işğaldan azad olunmuş torpaqlarda baş verən genişmiqyaslı yanğınlar söndürülməsinə cəhdlər olunsa da, bizim istəyimizdən asılı olmayaraq təbiətə və ətraf mühitə ciddi ziyan vurmaqdadır. Lakin burada yanğının qarşısının alınmasında əsas maneələrdən biri və deyərdim ki, birincisi məhz Ermənistanın bölgədə geniş şəkildə mina və partlayıcı qurğuları yerləşdirməsidir. Bu da yanğının yayılmasının qarşısını almaq üçün texnikanın və canlı qüvvənin tam gücü ilə əraziyə daxil olmasını çətinləşdirir. Bütün dünya tarixi torpaqlarımızın geri alınmasından sonra Ermənistan tərəfdən təbiətə və ekosistemə qarşı terrorun və vurulan ziyanın şahidi olmuşdu. Amma bu yanğına müdaxilə zamanı qarşılaşdığımız mənzərə hələ də erməni terrorunun davam etdiyini deməyə əsas verir...




## FHN-in və digər dövlət qurumlarının çevik fəaliyyəti

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, DİN Daxili Qoşunları və s. bu sahədə yüksək səviyyədə koordinasiyalı fəaliyyət göstərir. Helikopterlər, xüsusi yanğınsöndürmə texnikaları və təlim keçmiş yanğınsöndürən qruplar mümkün olduğu qədər mina təhlükəsi olmayan sahələrə dərhal müdaxilə edirlər.

FHN tərəfindən bölgəyə hava vasitələri ilə termal müşahidələr, müstəqil dron izləmə sistemləri, mobil komanda mərkəzləri və ekoloji monitorinq qrupları cəlb olunub. Müvafiq qurumların birgə fəaliyyəti sayəsində artıq bir neçə böyük miqyaslı yanğın məhdudlaşdırılıb və təbii sərvətlərin daha çox zərər görməsinin qarşısı alınıb. Amma...



## Flora və fauna üçün itkilər

Yanğın nəticəsində Dağlıq Qarabağın zəngin, füsunkar təbiətinə ziyan dəyir. Xüsusilə meşəlik ərazilərdə yerləşən endemik bitki növləri, nadir ağac cinsləri və vəhşi heyvanların məhv olma təhlükəsi var. Yerdə yaşayan sürünənlər, quş yuvaları və balaca məməlilər yanğın nəticəsində təhlükə ilə üz-üzə qalıb. Bəllidir ki, yanğın fəlakət kimi bir qlobal prosesdir. Yəni dünyada bu cür nümunələr yüzlərlədir. Müqayisə üçün xatırlama...



## Türkiyə təcrübəsi: 2023-cü ilin yanğını və ağrılı dərslər

Yalnız regionda deyil, bütün dünyada bənzər təbiət fəlakətləri yaşanır. 2023-cü ilin yayında Türkiyənin Muğla və Antaliya vilayətlərində baş verən dəhşətli meşə yanğınları 150 min hektardan çox ərazini külə döndərdi. Bu yanğınların nəticəsində təxminən 1 milyon canlı varlıq tələf oldu, 3000-dən artıq insan evakuasiya edildi.

Türkiyə FHN və Jandarma Qüvvələri tərəfindən həyata keçirilən mübarizə əməliyyatlarına baxmayaraq, iqlim şəraiti, yüksək temperatur, küləklər və bəzən insan səhlənkarlığı fəlakətin miqyasını artırmışdı. Bu təcrübə göstərdi ki, təbii fəlakətlərlə mübarizə üçün qabaqlayıcı tədbirlər, ictimai maarifləndirmə və güclü texniki təchizat zəruridir.

## Qlobal miqyasda yanğın faciələri...

2020-ci ildə Avstraliyada 186 min kvadrat kilometr sahənin yanaraq külə dönməsi təxminən 3 milyard heyvanın həyatına son qoydu. Kaliforniyada hər il minlərlə hektar meşə sahəsi yanaraq həm ekosistemi dağıdır, həm də atmosferə milyonlarla ton karbon buraxır. Amazon meşələri isə "planetin ağciyəri" adlandırıldığı halda, burada baş verən yanğınlar qlobal iqlim dəyişikliyini daha da dərinləşdirir.

## Səssiz ölüm?!

Yanğınlar təkcə ağacları deyil, həm də torpağın altındakı mikroorqanizmləri, yerdə yaşayan sürünənləri, yerüstü canlıları və quşları məhv edir. Bəzi nadir bitki və heyvan növləri üçün bir yanğın yüz illərlə davam edən təkamül prosesinin sonu ola bilər. Məsələn, Cənubi Amerikanın bəzi bölgələrində yalnız müəyyən ağac növlərində yaşayan quşlar və ya sürünənlər bir neçə saatlıq alov nəticəsində tamamilə yox ola bilər.

Floranın məhv olması isə ekosistemin özünü bərpaetmə qabiliyyətini zəiflədir. Torpağın eroziyası artır, su hövzələrinin çirklənməsi sürətlənir, kül və tüstü ilə havaya yayılan zərərli hissəciklər insan sağlamlığı üçün təhlükəyə çevrilir.

## Dərs alınmalı reallıqlar

Qarabağda baş verənlər bir daha sübut edir ki, təbiətə qarşı edilən hər bir təhlükə istər hərbi müdaxilə, istərsə də texnogen müdaxilə nəticədə insanlığa yönəlmiş təhlükəyə çevrilir. Mina terroru, yanğının yayılmasına qarşı aparılan mübarizəni ləngidir, lakin Azərbaycanın dövlət qurumları bunun öhdəsindən gəlmək üçün ciddi iradə və çevik resurslarla çalışır.

Eyni zamanda, beynəlxalq ictimaiyyət bu məsələyə göz yummamalı və susmamalıdır. Ermənistan mina xəritələrini tam və şəffaf təqdim etmədikcə, bu, yalnız Azərbaycanın deyil, regionun ekoloji təhlükəsizliyinə vurulan zərbə kimi qəbul edilməlidir.

## Sonun əvvəli...

Təbiət bizə miras yox, əmanətdir. O, qorunmalı, bərpa olunmalı və gələcək nəsillərə ötürülməlidir. Qarabağda, Türkiyədə və dünyanın digər bölgələrində baş verən yanğınlar - təkcə alovla deyil, həm də biganəliklə mübarizəni tələb edir. Yoxsa...

# “Bakı enerji və nəqliyyat siyasətini suverenlik prinsipi əsasında həyata keçirir”

**“Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın ”Berliner Zeitung” nəşrinə müsahibəsində ABŞ şirkətinin Zəngəzur dəhlizi layihəsində roluna dair yayılan xəbərlərə münasibət bildirib. Hacıyev qeyd edib ki, bu məsələ Ermənistanın qərarına bağlıdır”. Bu sözləri SİAya açıqlamasında politoloq Turan Rzayev deyib.**







Turan Rzayev sözlərinə belə davam edib: ””Əgər ABŞ şirkətləri ilə işləyirlərsə, bu, onların işidir. Biz isə öz üzərimizə düşəni edirik: Gürcüstan, İran və Rusiya ilə nəqliyyat əlaqələrimizi gücləndiririk. Bu layihələr bütün bölgəyə fayda verəcək. Əgər Ermənistan istəsə, biz Transqafqaz dəhlizi üzərində birgə işləməyə hazırıq”, - deyə o, vurğulayıb.

Hacıyevin bu sözləri, Bakının birbaşa İrəvana, dolayı yolla isə Vaşintona cavabı kimi qiymətləndirilə bilər. Məlum olduğu kimi, qısa müddət öncə İspaniyanın ”Periodista Digital” nəşrində yayılan mübahisəli məqalədə Ermənistan hökumətinin Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizinə nəzarəti ABŞ-a verməyə razılaşdığı iddia edildi. Nəşr yazır ki, hətta bu istiqamətdə memorandum imzalanıb və sənəd Ermənistanın Sünik rayonu (Zəngəzur-.red) ərazisindən keçməklə, Azərbaycanın Naxçıvanla birləşdirəcək 42 kilometr uzunluğunda nəqliyyat dəhlizinin yaradılmasını nəzərdə tutur. Marşruta da müvəqqəti olaraq ”Tramp körpüsü” adı verilib.

Ən diqqətçəkən məqam isə dəhlizin özəl Amerika şirkəti tərəfindən idarə olunması iddiasıdır. Burada söhbət nizami ordudan yox, 1000-ə yaxın döyüşçüdən ibarət özəl hərbi şirkətdən gedir. Bu qüvvələr dəhlizin təhlükəsizliyini təmin edəcək və marşrutdan əldə olunan gəlirin yalnız 30%-i İrəvana veriləcək.

Nəşrin iddiasına görə, memorandum artıq Ermənistan, Azərbaycan və ABŞ tərəfindən təsdiqlənib. Lakin Hikmət Hacıyevin açıqlamasından belə nəticə çıxarmaq olar ki, ortada təsdiqlənmiş bir sənəd yoxdur. İstisna deyil ki, Vaşinqton tərəflərə bu məzmunda memorandum təklif edib və müəyyən təzyiqlər də göstərib. Ancaq bütün bunlara rəğmən, İrəvandan fərqli olaraq Bakının belə bir təklifi qəbul etməsi gözlənilmir.

Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı siyasəti praqmatik və çoxvektorlu xarakter daşıyır. Bakı regional iqtisadi inteqrasiyanı təşviq edir, eyni zamanda təhlükəsizlik risklərini qabaqcadan nəzərə alaraq ehtiyatlı addımlar atır. ABŞ və Ermənistan arasında imzalanmış memorandumun detallarına rəsmi təsdiq verilməsə də, belə bir gediş Azərbaycanın maraqlarına uyğun deyil. Xüsusilə də 1000 nəfərdən ibarət özəl hərbi şirkətin dəhlizə nəzarət etməsi məsələsi

ABŞ-ın layihəyə hərbi komponent əlavə etməsi, regionda güc balansını dəyişməyə yönəlməsi Azərbaycanın maraqlarına uyğun gəlmir. Əgər Bakı dəhlizə nəzarəti başqa ölkəyə vermək niyyətində olsaydı, Rusiya ilə əməkdaşlığı davam etdirərdi. Bu baxımdan, Hikmət Hacıyevin açıqlaması Azərbaycanın ABŞ təklifinə birbaşa ”yox” demədən, məsafəli və ehtiyatlı yanaşdığını göstərir. Azərbaycan tərəfi açıq şəkildə bildirir ki, Ermənistanın dəhlizdə kiminlə işləmək istəməsi onun seçimidir. Bakı isə enerji və nəqliyyat siyasətini suverenlik prinsipi əsasında həyata keçirir.

Bakı alternativ marşrutlar üzərində işləməklə həm siyasi çevikliyini qoruyur, həm də İrəvanla aparılan müzakirələrdə təzyiq imkanlarını artırır. Hacıyevin, ”Gürcüstan, İran və Rusiya ilə nəqliyyat əlaqələrimizi gücləndiririk. Bu layihələr bütün bölgəyə fayda verəcək. Əgər Ermənistan istəsə, biz Transqafqaz dəhlizi üzərində birgə işləməyə hazırıq”, - sözləri bunu təsdiqləyir.

Hacıyev açıqlamasında İran və Gürcüstanı xüsusi olaraq qeyd edir ki, bu da təsadüfi deyil. Azərbaycan Zəngəzur dəhlizinin alternativ marşrutlarını məhz bu iki ölkə istiqamətində inkişaf etdirir. İran vasitəsilə Naxçıvanla quru bağlantının gücləndirilməsi, eləcə də Gürcüstan üzərindən Avropa bazarlarına çıxış imkanı ölkəmizin manevr sahəsini genişləndirir. Prezidentin köməkçisi hələ 2023-cü ildə ”Politico” nəşrinə müsahibəsində demişdi: ”Tərəflər Zəngəzur dəhlizinin açılması ilə bağlı razılığa gələ bilmədikdən sonra, layihə bizim üçün cəlbediciliyini itirib. Biz bunu İranla yerinə yetirə bilərik Məsələ hələ də masanın üstündədir, lakin Ermənistan tərəfi bununla həqiqətən maraqlandıqlarını göstərmək üçün tələb edəcək”.

Bakı həmçinin bilir ki, İran ABŞ-ın regiondakı hərbi varlığına qarşı sərt reaksiya verəcək. Bu səbəbdən ”topu” İrəvana ataraq bir daha alternativ marşrutlara üstünlük verdiyi mesajını çatdırır. Bununla da İran və Rusiyanın ehtimal olunan reaksiyalarından özünü sığortalayır. Nəticə etibarilə, Hikmət Hacıyevin açıqlaması göstərir ki, Bakı üçün əsas məsələ suverenliyə hörmət, regional əməkdaşlıq və uzunmüddətli sabitliyin təmin olunmasıdır. ABŞ-Ermənistan memorandumu olsun, ya da olmasın, Azərbaycan öz yolunu seçir. Zəngəzur dəhlizinin hansısa xarici ölkə və ya beynəlxalq şirkətin nəzarətinə verilməsinə isə isti yanaşmır. Hətta belə şərtlərlə dəhlizin açılması məsələsi gündəmdən çıxarıla və prosesdə arxa plana keçə bilər”.

***Ayşən Vəli***



**Elçin Bayramlı**

# Rüşvət: verirlər, yoxsa alırlar?

***Bir dövlətin, bir cəmiyyətin ən böyük düşməni korrupsiyadır. Ona görə də, korrupsiyaya qarşı mübarizədə dövlətlə cəmiyyət eyni cəbhədə olmalıdır. Dövlət bu sahədə lazımi addımlar atır- korrupsiyaya qarşı mübarizədə milli fəaliyyət planı hazırlanıb, bir çox praktiki tədbirlər həyata keçirilib və s.***

Bəs korrupsiya hallarının müəyyənləşdirilməsi, korrupsionerlərin məsuliyyətə cəlb edilməsi, dövlətə və vətəndaşlara dəymiş ziyanın ödənilməsi üçün ictimaiyyət nə etməlidir? Vətəndaş cəmiyyətinin burada çox böyük rolu ola bilər. Əksər ölkələrin təcrübəsi bunu bizə aydın göstərir. Təəssüf ki, bizdə vətəndaşlar belə məsələlərdə passivdir.

Vətəndaş cəmiyyəti ”bu, mənim işim deyil, mən qarışmıram, mənə nə”, prinsipi ilə qurulmur. Azərbaycanda dövlətin, hakimiyyətin mənbəyi xalqdır və ölkə prezidenti həmişə vətəndaşları fəal olmağa, dövlət quruculuğunda, vətəndaş cəmiyyəti quruculuğunda iştirak etməyə, problem və nöqsanların aşkara çıxarılmasında öz töhfələrini verməyə çağırır. Və dövlət başçısı özü ən sərt şəkildə neqativ halları, problemləri deyir, öz vəzifəsini yerinə yetirməyən məmurları sərt tənqid edir və cəzalandırır.

Bundan artıq nə olmalıdır ki, vətəndaşlar başa düşsün ki, vətəndaş məsuliyyəti vacib şeydir?! Bu gün inkişaf etmiş ölkələrə baxsaq görərik ki, məhz belə cəmiyyətlər qurulub. Bizdə isə bir çox hallarda ”mən” ”biz”dən üstün tutulduğundan heç kim özünü əziyyətə salmır. Sonra da deyirlər, filan məsələ niyə həll olunmadı

Biri nədənsə çəkinir, bizi özünü kiminləsə pis eləmək istəmir, biri ”mən niyə deyim, qoy başqası desin”, fikirləşir və s. Belə vətəndaşlıq olmur, belə cəmiyyət yaranmır. Bizdə cəmiyyətin əvəzinə rüşvətxor məmurlarla jurnalistlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri mübarizə aparır, vətəndaşların əvəzinə onların hüquqlarını tələb edirlər. Birisi aparıb məmura zorla rüşvət verir ki, oğlunu işə düzəltsin və ya filan məsələni həll etsin, sonra da deyir, ölkədə rüşvət var. Bəli, rüşvət var, amma sənə görə var. Sən rüşvət verirsən deyə var. Rüşvət verən olmasa, alan da olmaz. Bu, adi məntiqdir.

Bu təfəkkürlə normal cəmiyyət, normal ölkə qurmaq mümkün deyil. Bu problemin həll olunması üçün əvvəlcə vətəndaş təfəkkürü dəyişməlidir. Müəllimlər günü, 8 mart kimi bayramlar qabağı bəzi valideynlər ortaya düşüb pul yığmaqla məşul olurlar ki, müəllimə versinlər. Halbuki bir çox müəllimlər, heç bir pul, hədiyyə tələb etməyiblər, hətta bəziləri sərt şəkildə xəbərdarlıq ediblər ki, bu məqsədlə pul yığılmasın. Buna baxmayaraq, valideynlər canfəşanlıqla bu rüşvətin yığılmasını təşkil edir və zorla müəllimə verməyə çalışırlar.

Ya da, tenderlərin keçirilməsində şəffaflıq yoxdur, kim kimə istədi tenderi verir və şişirdilmiş qiymətlərlə layihəni həyata keçirdir, beləliklə xeyli dövlət vəsaitini mənimsəyirlər. Bununla bağlı faktlar açıqlananda tədbirlər görülür, amma bir çox belə hallar haqda ümumiyyətlə məlumat verilmir. Belə ki, tenderdə haqsız uduzan şirkət belə heç yerə şikayət etmir, məsələni ictimailəşdirmir.

Ona görə də, biz həqiqətən də rüşvətsiz cəmiyyət, korrupsiyasız dövlət qurmaq istəyiriksə, hər birimiz bu prosesdə fəal olmalı və vətəndaş mövqeyimizi ortaya qoymalıyıq. Bunun üçün özümüzdən başlamaq kifayətdir- biz heç kimə rüşvət verməməli, belə hallar qarşılanda isə məsələni ictimailəşdirməli və müvafiq orqanlara çatdırmalıyıq.

Əgər bunu etmiriksə, deməli bu vəziyyət bizə sərf edir. Sərf edirsə, onda niyə şikayətlənirik ki? Şikayətləniriksə, bu vəziyyəti düzəltməyə çalışmalıyıq. Bunun üçün ən yüksək səviyyədə siyasi iradə də var, hüquqi baza da, ictimai platforma da. Əsas prinsipi unutmayaq- rüşvət verən olmasa, heç kim ala bilməz! Beləliklə, bu problem həll olunmuş olar.

# Cehiz dilemması: intihar çarədirmi?

***Bəşəriyyət var olduğundan bəri analar-atalar qızını gəlin köçürəndə ona müəyyən əşyalar verərmiş. Tam mənası ilə cehiz sayılmazmış, amma simvolik məna kəsb edərmiş. Zamanla cehiz ənənəsi formalaşır, xırda ev əşyaları, əl işləri, tikmələr, döşəkçələr, nimdərlər, əldə toxunan kilimlər aparırmış qızlar ər evinə. Ər evinə aparılan əşyalar adətən simvolik xarakter daşıdığı üçün qiymətinə, dəyərinə görə ayırd edilmirdi. Zaman keçdikcə cehiz ənənəsi də transformasiya oldu, indi bu ənənə simvolikadan çoxdan uzaqlaşıb, güc yarışına çevrilib.***





Biz çoxdandır el üçün yaşayırıq, göstəriş, nümayiş üçün edirik çox şeyi. Biz, biz olmuruq, özümüz olmaqdan başqa hamı oluruq. Toy edəndə, yas məclisi quranda, ad günü, sünnət toyu edəndə hamının yerinə düşünürük, hamının fikri əhəmiyyətli olur öz düşüncəmizdən başqa. Öz bildiyimiz, öz doğrumuz bizə yetərli olmur, qınaqdan, tənədən çəkindiyimiz üçün. Çoxluğun düşüncəsi ilə oturub-dururuq. Cehizsiz qız evləndirməyi ona görə özümüzə sığışdırmırıq, "filankəsin 10-15 min manatı olmadı qızına yüngülvari bir cehiz düzə" deməsinlər deyə. Cehizi başqalarının gözündə zəif olan qızlar qınanır, atası-anası məsxərəyə qoyulur, cehizsiz evlənənlərin evindən söz-söhbət əskik olmur. Belə bir cürümüş fikir var təəssüf ki cəmiyyətimizdə.

Birlikdə yaşamağa, həyatı paylaşmağa və toya hazırlıq gənclərin ən şirin həyəcanıdır, bu dövrü mal-mülk, bahalı restoran, daha bahalı zinət əşyaları, daha bahalı ev əşyaları haqqında dava-dalaşla keçirən tərəflərin ömür yolu da uzun olmur. Sağlam ünsiyyət və müzakirə mədəniyyəti ən vacib xırdalıqdır bu anlarda, əgər tərəflər bu ünsiyyəti qura bilmirlərsə, müzakirə mədəniyyətləri yoxdursa və dünya malı üçün bir-birindən incik düşürsə, bu evlilik başlamadan bitsə daha məqbuldur. Biz son hadisədə bir daha gördük, cehiz problemi insanı öldürə də bilərmiş. Bundan əvvəl də şahidi olmuşduq axı, qızına kreditə aldığı cehizin pulunu ödəyə bilmədiyi üçün özünü metroda qatarın altına atan ananı da görmüşdük, valideynləri istədiyi cehizi almadığı üçün intihar edən qızı da, toydan sonra qız tərəfinin ödəməkdən imtina etdiyi, buna görə oğlan evində davaya səbəb olan kreditlik cehiz əhvalatını da.



Bir yataq örtüsünə 700 manat, bir çılçırağa 1000, bir meyvə qabına 300, heç vaxt qıyıb yemək yeməyəcəyi qab dəstinə 5000 manat pul verib misli görünməmiş cehiz tutanlar sonra o qabları istifadə etməyə də qıymırlar. Çox çıxıb mətbuat gündəminə, cehiz üstə gah qız özünü asır, gah ata borcdan bezib intihara əl atır. Nə məcburdur, ay camaat? Niyə siz uşağınıza içində adi yemək yeyəcəyi qab dəstini 9 minə almalısınız? Niyə ömründə bir dəfə qıyıb içində su içməyəcəyi 12 stəkana 2 min pul verirsiniz? İldə bir dəfə - yeni ildə içinə meyvə qoyub selfi edəcəyi meyvə qabına niyə 700 manat verirsiniz?

Bu günlərdə Ağdaşda baş verən bir hadisə də media gündəmini uzun müddət zəbt elədi. Qayınana gəlinin cehizini bəyənməyib. Düşünə, inana bilirsiniz? Min bir həvəslə cehiz düzən, qırmızı lentlə bəzəyən nişanlı qızın keçirdiyi hissi təsəvvür edə bilirsiniz? Qiyasın gələcək qayınatasının müsahibəsinə baxdım, haqlı olaraq bir cümlə işlətdi: "Mən o cehizi qızıma almışam, gücüm ona yetib, bu gün verdiyim çılçırağı bəyənməyən sabah da qızımı bəyənməyəcəkdi, ona görə zəng etdim Qiyasın atasına dedim ki, nədir problem? Dedi sənin verdiyin cehiz çılçıraq kaprondur, yaxşısından deyil, evimə yaraşmır. Dedim lap yaşı, onda gedin yaxşısını kim verirsə onunla qohum olun, mən qızımın nişanını pozuram". Nə qədər məntiqli cümlələrdir, nə qədər ağıllı iraddır. Cehiz qızındır, cehiz gəlinin şəxsi istifadəsi üçündür. Cehizin dəyəri, tərkibi qaynananın, baldızın sifarişi ilə yox, ailənin maddi gücü ilə təyin olunur, bu tarixən belə olub.

Bir də intihar edən gəncin ailəsinin müsahibəsinə baxın. Ana: "Bütün evi atası təmir etdirib, bütün əşyaları atası alıb, hər şeyi atası edib". Mən anlamadım, kimin evini qonşunun atası təmir etdirir ki? Evin kişisi öz evini təmir etdirirsə bu niyə qalxan kimi üzə tutulur bu hadisədə? Qiyasın bacısının gəlin gələcək qıza zəng edib "sənin aldığın çılçıraq bu təmirə yaraşmır" dediyi iddia olunur, bu qədər ədəbsizlik normaldır? Müsahibəsində isə deyir: "Gəlinlə eyni yerdə işləyirəm, kotleti gətirib tək yeyir işdə". İnsanın qardaşı cavan yaşında canına qıyıb, toy olacaq həyətdə yas məclisi qurulub, o hələ də maddi çıxarlardan, dünyəvi həzlərdən danışır.

Əgər o cehiz geri qaytarılmasaydı, əgər o nişanlı qız o evə gəlin getsəydi yaxın aylarda böyük ehtimalla biz ya onun intihar, ya da boşanma xəbərini oxuyacaqdıq mətbuatda. Qiyasın intiharı bunu proqnozladı. Qiyasın bundan əvvəl də nişanlı olması, ailəsinin onun əvvəlki nişanlısı ilə də cehiz məsələsinə görə problem yaşaması, bu problemə görə nişanın pozulması, o gəncin "deja vu" yaşaması niyəsə xalça altına süpürüldü.

Cehiz ailələrin mal-mülk müsabiqəsi deyil, milli adətdir. Cehizində nəyin olması və nəyin olmaması önəmli deyil, önəmlisi odur ki, ər evinə köçən qız ata yurdundan əliboş yola salınmır. Amma cehizsiz ailə qurmağı heç bir halda dərd etmək lazım deyil. Bizim cehizsiz ailə quran o qədər gənclərimiz var ki, öz əməkləri ilə hər şeyə sahib olublar. Önəmli olan ər evinə mənəvi cehiz - isмət, abır-həya apara bilməkdir.

Ailəni bir səfər, cehizi isə o səfərə çıxanda yola götürülən əşyalar kimi düşünün. Kimi ağırlığın altında əzilir, kimi də yolda özünə lazım olan əşyaları alır. Ailə adlı səfərə çıxanda bütün bunları nəzərə alın, əziz gənclər. O səfərdən əliboş, narazı, yarımçıq qayıtmayın. Əksinə, daha uzun bir yol qət etmək, daha yaxşı yol yoldaşı olmaq, daha anlayışlı bir həyat yaşamaq üçün əvvəlcədən bəzi gərəksiz prosedurları, sizə zorla pərçimlənən tələbləri özünüzdən uzaqlaşdırın. Maddi çıxarlar üzərində qurulan ailənizin ömrü uzun olmaz.

***Lalə Mehralı***



## "Copy-paste" gözəllik

**Lalə Mehralı**

Gözəllik tarixən insanların əhəmiyyət verdiyi və hər coğrafiyada fərqli tabuları olan anlayış olub. Bir millətin ecazkar hesab etdiyi gözəllik kriteriyası başqa bir millətə absurd gəlib. Bir ölkədə qəlibə salınaraq böyüməsi dayandırılan ayaqlar gözəllik kriteriyası olub, digərində dodaqların, qulaqların, boğazların dəmir halqalara keçirilməsi. Bizim sevdiyimiz düz saçlar onlara bədbəxtlik əlaməti kimi görünüb, onların ağac budağına oxşayan hörükləri bizə ürküdücü gəlib.

Platona görə, gözəllik ilahi zəkanın dünyada əks olunmasıdır. İlahinin verdiyi gözəlliyi olanlar da bəyənmir daha özünü. Bilirsiniz nə qədər gözəl qız özünü əməliyyatla "urod" edir? Saysız-hesabsız. Spesifik görünüşü ürəkləri titrədən, saf gözəlliyi ilə əks-cinsi riqqətə gətirən qızlar yoxdur daha. 17-18 yaşadək enib tibbi prosedurlar, müdaxilələr.

Ölkədə demək olar ki, bütün qızlarda eyni burun var. Daha qövslü burnu olan da yoxdur, fındıq burunlular da. Burun dəlikləri qarşı küçədən görünən estetikli qızlar hər gün artır. Estetik həkimlər "copy-paste" üsulu ilə işləyir, hamıda eyni tip burun var. Nazik burnunun üstündə azacıq çıxıntısı olan qızlar da əməliyyata qaçır. Anlamır o çıxıntının simasına necə incəlik verdiyini, onu spesifik etdiyini.

Gözlər insanın anadangəlmə sahib olduğu ən dəyərli hədiyyəsidir. Üzümüzdə ən çox diqqət edilən, ən nəzərəçarpan orqanımızdır. Əhəmiyyətliliyi tək gözlərin rəngi, quruluşu deyil, gözün həyatımızdakı rolunun özü böyükdür. Biz nə edirik? Yaradanın ən mükəmməl hədiyyəsini bəyənməyib barmaq edirik. Ya tibbi müdaxilə ilə formasını dəyişirik, ya rəngini bəyənməyib linza qoyuruq. Bəzən lap ağını çıxarıb tibbi prosedurla göz rəngimizi qalıcı olaraq dəyişirik. Ya kor oluruq, ya da ömürlük peşman.

Çoxdandır ki, gözlər qəlbin aynası deyil. Gözlərinə baxdığımızın qəlbini görməyəli çox olub. Daha piyalə, ceyran gözlü qızlar da azalıb. Alagöz dediyimizin gözü sən demə qara imiş, xəbərimiz yoxdur. Dünən ala gözlərini görüb vurulduğu qızın gözlərini bu gün mavi görən gəncin çaşqınlığını bir təsəvvür edin. Gözlərin öz təbii formasını itirməsi də çoxdan olub, iplərlə dartılıb gicgaha bağlanmış badam gözlülər, tülkü gözlülər, bir-birinin eynisi olan qızlar çoxalır. Miyanə anlayışı ortadan yoxa çıxıb.

İnsan simasının ən nəzərə çarpan nöqtələrindən biri də dodaqlardır. "Qonça dodaq", "yarpaq dodaq" deyə vəsf edilib tarixən gözəllər. "Ağız nazik, dodaq nazik, dil nazik" deyən Vaqif indiki şar dodaqları görsə nə cür təsvir qoşardı, kim bilir. Dolğu ilə şişirdilən dodaqlar daha aşıq Ələsgərin təbirincə desək "kip" durmur, o qədər müdaxilə edilir ki dodaqlar örtülmür, örtülmüş vəziyyətdə belə ağızda dişlər görünür. Alt dodaq çənəyə doğru, üst dodaq buruna doğru yola çıxıb. Daha nazik dodaqların gözəllik anlayışında yeri yoxdur, sıxışdırıb çıxardılar.

Çənəyə, almacıq sümüyünə də müdaxilə edildiyini biləndə mat qaldım. Çənə sümüyünü yonub üçbucaq görüntü verirlər. Ağız içindən kəsib xüsusi cihazla girib çənəni rəndələyirlər. Daha incə görünmüş deyilənə görə. Almacıq sümüyü hiss edilməyən üzlərdə onu da qabardırlar, ya ətrafını rəndələyib sümüyü daha kəskinləşdirirlər, ya da dolğu ilə qabarıqlaşdırırlar. Ölkə dolub Malefisenta görünüşlü qadınlarla.

Geniş alın gözəllik etalonu idi bir zamanlar. Gözlərin gözəlliyinin ortaya çıxması, üzün daha aydın görünməsi üçün alnı kiçik qızlar hətta saç diblərindən saçları seyrəkləşdirir, alın nahiyəsini böyüdürdü. İndi geniş alnı olanlar kiçiltmək məqsədi ilə saç əkdirir alnına. Təbii qaşlarını bəyənməyib nümayişə qalxmış tük effekti etdirənlər də az deyil.

Gözəllik anlayışı sərhəd tanımır, hətta sərhədləri, hüdudları yıxır desək daha doğru olar. İnsan əlindəkilərlə qane olmur, həmişə yenisini, fərqlisini, dahasını, növbətisini istəyir. Gözəllik uğrunda gedən bu mübarizədən qazanclı çıxan hələ ki, estetik həkimlərdir. Bazar onlara işləyir.

# Tramp Putini cəzalandırmağa tələsir

## ABŞ prezidenti Rusiyaya qarşı təzyiqi artırmağa hazırlaşır

***ABŞ prezidenti Donald Tramp Rusiya ilə ticarət və sanksiya müharibəsi istiqamətində həlledici addım ataraq ona ultimatum göndərib: yaxın 10-12 gün ərzində Ukraynada hərbi əməliyyatları dayandırın, ya da Rusiya mallarını alan ölkələrə 100% rüsum tətbiq etməyə hazır olun. Vladimir Putinlə mümkün görüşlə bağlı sualı cavablandıran Donald Tramp deyib ki, o, "artıq danışıqlarda o qədər də maraqlı deyil". Trampın Ağ Evə qayıtdıqdan sonra Moskvaya qarşı ən sərt bəyanatı Şotlandiyada Böyük Britaniyanın baş naziri Key Starmerlə görüşündən sonra olub. İndi əsas sual ondan ibarətdir ki, Donald Trampın hədəsi necə reallaşacaq və o, indiki administrasiyanın Ağ Evdə hakimiyyətinin ilk aylarında Moskva və Vaşinqtonun əvvəlki hadisələrinin üstündən xətt çəkərək Rusiya-Amerika münasibətlərində geri dönüş nöqtəsinə çevriləcəkmi?***



Prezident Tramp Şotlandiyada Böyük Britaniyanın baş naziri Keir Starmer ilə danışıqlardan sonra Ukraynada döyüşləri mümkün qədər tez dayandırmaq və ya Rusiyadan enerji alan ölkələrə 100 faiz Amerika tarifləri tətbiq etməyə hazır olmaq üçün Rusiyaya açıq-aşkar qeyri-real ultimatum ünvanlayıb. "Trump Turnberry" qolf klubunun girişində baş nazir Starmer və həyat yoldaşı Viktoriyanın yanında dayanan prezident Tramp Rusiya ilə bağlı yeni rezonans doğuran açıqlama verib. Trampın bu etirafı onun İstanbulda üçüncü raund da daxil olmaqla Rusiya və Ukrayna arasında sülh danışıqlarına başlamaq üçün son həftələrdə etdiyi bir çox əvvəlki bəyanatları və səylərini ləğv edib və ya şübhə altına alıb.

Keir Starmer ilə danışıqlardan sonra Donald Tramp jurnalistlərə deyib: "Mən yeni bir son tarix təyin edəcəyəm - bu gündən təxminən 10 və ya 12 gün. Gözləmək üçün heç bir səbəb yoxdur. Mən səxavətli olmaq istəyirdim, ancaq biz heç bir irəliləyiş görmürük". Onun sözlərinə görə, o, iyulun 14-də Rusiyaya verdiyi 50 günlük ultimatumun bitməsinə qədər vaxt itirmək fikrində deyil və indi diplomatiya, o cümlədən yüksək vəzifəli şəxslər arasında təmaslar vasitəsilə deyil, ikinci prezidentlik dövründə hələ də istifadə etmədiyi Rusiyaya qarşı ağrılı üsullarla qərar qəbul etməyə məcbur edəcək. "Biz sizinlə, bəlkə də, beş və ya dörd də, dəfələrlə müzakirələr aparmışıq və fikirləşmişik ki, biz artıq hansısa həll yoluna gəlmişik. Sonra prezident Putin çıxıb Kiyevə raket zərbələri endirməyə başlayır... Mən də deyirəm: siz bunu edə bilməzsiniz. Ona görə də nə baş verəcəyini görəcəyik. Prezident Putindən çox məyus oldum. Ona görə də bu işi yenidən nəzərdən keçirəcəyik, ona 5 gün vaxt ayırmalıyam", Tramp bildirib: "Mən daha onunla danışmaqda o qədər də maraqlı deyiləm".

Beləliklə, o, nəinki təkbətək görüşlərin mümkün olmadığını, həm də Vladimir Putinlə telefon danışıqlarının əvvəlki raundunun başa çatmaq üzrə olduğunu açıq şəkildə bildirib. Donald Trampın Rusiya ilə münasibətlərə baxışlarında nəzərəçarpacaq təkamüldən xəbər verən yeni açıqlaması meqasensasiyaya çevrilməyib. Ötən cümə günü, iyulun 25-də başlayan Şotlandiyaya səfəri ərəfəsində Donald Tramp ilk dəfə etiraf edib ki, Rusiyanın ticarət tərəfdaşlarına qarşı 100% ikinci dərəcəli tariflərin tətbiqi onun sentyabrın 3-nə təyin etdiyi son tarixdən tez baş verə bilər. Bundan sonra ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Tammi Bryus aydınlaşdırıb ki, bu müddət bundan sonra da müəyyən edilə bilməz.

Nəhayət, Moskvanın 50 gün ərzində Ukrayna nizamlanmasında irəliləyiş əldə etməsi üçün daha yumşaq tələbdən imtina edərək, Donald Tramp Rusiya ilə münasibətlərdə payı artırıb. Trampın yeni təhdidləri ilə bağlı Rusiya tərəfdən heç bir rəsmi açıqlama verilməyib. Lakin həmin günün əvvəlində, Trampın Şotlandiyadakı bəyanatlarından bir neçə saat əvvəl Vladimir Putinin mətbuat katibi Dmitri Peskov ABŞ və Rusiya prezidentlərinin görüşünün mümkünlüyü və şərtlərini müzakirə edib. "Hesab edirik ki, əvvəlcə ekspertlər səviyyəsində müəyyən işlər görməliyik, çünki bu işi, bu çətin, kobud işi prezidentlərin öhdəsinə buraxmaq tamamilə məntiqsizdir. Əvvəlcə hazırlaşmalı, nizamlanmanın parametrlərini tərtib etməli, sonra isə onları ən yüksək səviyyədə düzəltmək lazımdır, əksinə yox", - Kremlin sözçüsü Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Vladimir Putinlə Vladimir Putin arasında İstanbulda görüş təşkil etməsi ilə bağlı Türkiyə prezidentinin son bəyanatını şərh edərkən bildirib. Peskovun sözlərinə görə, Tramp sentyabrın 3-də militarist Yaponiya üzərində Qələbənin 80-ci ildönümünün və İkinci Dünya Müharibəsinin başa çatmasının qeyd olunacağı Çinə səfər etmək qərarına gəlsə, o zaman onun Pekində bayram tədbirlərinə dəvət olunmuş Vladimir Putinlə görüşü tamamilə mümkündür. "Putin özü belə bir səfərə hazırlaşdığını bildirib. Əgər ABŞ prezidentinin son nəticədə eyni tarixlərdə Çinə də səfər etməyi qərara aldığı ortaya çıxarsa, o zaman dövlət başçıları eyni şəhərdə olarsa, təbii ki, belə bir görüşü nəzəri cəhətdən istisna etmək olmaz", - deyə Peskov izah edib. Bununla belə, Ağ Evin mətbuat katibinin müavini Anna Kelli xatırladıb ki, prezident Tramp vədlərinə əməl edir və bunu dəfələrlə sübut edib. "O, Putinə qarşı son dərəcə sərt mövqe tutdu, bütün mümkün variantları öz arsenalında qoydu, mövcud sanksiyaları qüvvədə saxladı və həmçinin Putini təslim olmaqdan imtina etdiyi təqdirdə sərt tariflər və sanksiyalarla hədələdi", - xanım Kelli bildirib. Öz növbəsində, sanksiyaların icrasına cavabdeh olan ABŞ Maliyyə Nazirliyi öz bəyanatında Ağ Evin göstərişlərini yerinə yetirməyə hazır olduğunu açıqlayıb.

## Açıq və birmənalı

Rusiya-Ukrayna danışıqlarının üçüncü raundunu dəyərləndirməkdə fasilə verən ABŞ prezidenti Donald Tramp nəhayət ki, açıq və birmənalı çıxış edib. Məlum oldu ki, o, Rusiya Federasiyasının hərəkətlərindən son dərəcə narazıdır və buna görə də indi Rusiya-Ukrayna münaqişəsini sentyabrın əvvəlinə deyil, 10-12 günə bitirməkdə israrlıdır. Əks halda Rusiyanın enerji resurslarını alan ölkələrin mallarına 100% rüsum tətbiq olunacaq. Trampın tonunu dəyişməsinə yəqin ki, onun son vaxtlar diplomatik arenada, ilk növbədə Aİ ilə danışıqlardakı uğurları təsir edib. ABŞ prezidenti əmindir ki, rüsumların artırılması istənilən nəticəyə nail olmaq mümkün olan universal silahdır.

Məsələnin arxa planını qısaca xatırlayaq: İyulun 23-də İstanbulda Rusiya-Ukrayna danışıqlarının üçüncü raundu baş tutdu və mahiyyətcə əvvəlki iki danışıqlarla eyni şəkildə başa çatdı. Ukrayna prezidenti Vladimir Zelenski bildirib ki, onun nümayəndə heyəti dərhal və qeyd-şərtsiz atəşkəs əldə etməyə və iki dövlət liderlərinin görüşünə nail olmağa çalışacaq. Rusiya nümayəndə heyəti əvvəllər dediklərini təkrarladı: Kreml yalnız münaqişənin Rusiya memorandumunda əksini tapmış və artıq Kiyev tərəfindən qəbuledilməz kimi tanınan əsas səbəblərin aradan qaldırılması əsasında sülhü qəbul edəcək. Nəticədə, üçüncü raundun yeganə praktik nəticəsi, ilk ikisi kimi, başqa bir məhbus mübadiləsinə dair razılaşma oldu. Ağ Ev mətbuat katibi Caroline Leavitt və dövlət katibi Marko Rubio vasitəsilə İstanbuldakı danışıqların nəticələrindən təmkinli narazılığını bildirib.

Tramp susdu. O, öz qiymətini yalnız çox vacib hesab etdiyi qələbəyə nail olduqdan sonra verdi: Aİ-dən ABŞ-a ixraca 15% tariflərin tətbiqi ilə bağlı razılığa gələ bildi. Aİ, digər məsələlərlə yanaşı, Rusiya neft və qazının alınmasını Amerika nefti, mayeləşdirilmiş təbii qaz və nüvə yanacağı ilə əvəz etməyə razılaşıb. Bütün bunlar, Trampın ümid etdiyi kimi, ABŞ və Aİ arasında ticarətdəki balanssızlığı düzəldəcək: bu disbalansla mübarizə indiki prezident üçün uzun illər əl vəsvəsə olub. Aİ ilə razılaşma Şotlandiyada, Trampın Tornberidəki qolf klubunda əldə olunub. Orada Amerika prezidenti Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyenlə görüşüb. Thornbury-də Tramp Britaniyanın baş naziri Keir Starmer ilə danışıqlar aparıb. Onlardan sonra o, Rusiya-Ukrayna nizamlanmasından danışıb. Tramp deyib ki, o, Vladimir Putinlə "artıq danışmaqda maraqlı deyil", çünki onların işləyəcəyinə inanmır və sülhə doğru "heç bir irəliləyiş görmür".

Trampın yeni ultimatumunun Amerikanın Rusiyanın enerji resurslarının əsas alıcısı Çinlə tarif danışıqlarının başa çatacağı tarixə təsadüf etdiyini görmək asandır. May ayında ABŞ və Çin tarif müharibəsini avqustun 12-nə qədər təxirə salmaq barədə razılığa gəliblər. Bu tarixə qədər Tramp AB ilə olduğu kimi çinlilərlə də razılığa gəlməyi planlaşdırır. İyun ayında o, nəticədə aşağıdakı kompromis əldə ediləcəyinə ümid etdiyini bildirib: Amerika Birləşmiş Ştatlarına Çin idxalına 55% rüsum və Çinə Amerika idxalına 10% Çin rüsumları. Tramp bu müqaviləyə Rusiya nefti və qazının alınmasından imtinanın daxil olub-olmadığını izah etməyib. Ancaq razılaşma olmazsa, ABŞ prezidenti istənilən halda Çin idxalına qadağanedici tariflər tətbiq edəcəyinə söz verib. Qeyd edək ki, Çin hakimiyyətinin nümayəndələri lazım gələrsə, Rusiya neftindən imtina etməyə hazır olduqları barədə heç bir açıqlama verməyiblər. Amma Rusiyanın enerji resurslarının digər böyük alıcısının nümayəndəsi belə bir bəyanatla çıxış edib. İyunun 17-də Hindistanın neft və qaz naziri Hardeep Singh Puri ölkəsinin Rusiyadan təchizatsız qalacağı təqdirdə "tamamilə narahat olmadığını" söyləyib. O, hindlilərin artıq enerji alışlarını şaxələndirdiyini vurğulayıb.

Hindistanın qaz aldığı ölkələrin sayı 27-dən 40-a yüksəlib və Rusiya nefti bazarda yeni oyunçularla əvəz oluna bilər. O, yeri gəlmişkən partiya yoldaşı və Hindistanın baş naziri Narendra Modinin yaxın tərəfdaşı olduğunu bildirib. Bu nədir? Boş cəsarət? Trampı qəzəbləndirmək istəməmək? Reuters agentliyinin məlumatına görə, Hindistanın bütün neft idxalının 35%-i Rusiyanın payına düşür. Hindistan iqtisadiyyatı üçün onları tez və ağrısız əvəz etmək mümkün olacaqmı? Bu sualın cavabı yəqin ki, avqustun 3-dən sonra, səkkiz OPEC+ ölkəsinin görüşü baş tutandan sonra daha aydın olacaq. Rusiyadan başqa, bura Səudiyyə Ərəbistanı, İraq, BƏƏ, Küveyt, Qazaxıstan, Oman və Əlcəzair daxildir. Sentyabr ayı üçün neft hasilatını artırıb-artırmamaq barədə razılığa gəlməlidirlər. Neft qiymətlərinin səviyyəsi G8 üzvlərinin əksəriyyətinin hansı qərarı dəstəkləməsindən asılıdır. Kifayət qədər aşağı qiymət Hindistanı Trampın ultimatumunu qəbul etməyə sövq edə bilər.

Rusiya üçün Hindistan bazarının itirilməsi əhəmiyyətli problem olacaq. Rusiyanın Hindistan neft idxalının cəmi 2%-ni təşkil etdiyi, Avropanın isə Rusiya neftinin əsas alıcısı olduğu 2021-ci ilin reallıqları həmişəlik yox oldu. Görünür, uğurdan başı gicəllənən Tramp məqsədinə çatacağına əmindir. Ən azı o, artıq gələcəyə, Rusiya-Ukrayna münaqişəsinin bitdiyi və Trampizm ideoloqlarının nöqteyi-nəzərindən Amerikanın əsas rəqibi olan Çinlə qarşıdurmaya diqqət yetirmək mümkün olan reallığa baxır. "Politico" nəşri NATO-dakı mənbələrə istinadən iddia edir ki, sentyabrda Pentaqon ABŞ-ın Avropadakı hərbi kontingentinin azaldılmasının məqsədəuyğunluğu ilə bağlı yekun hesabat hazırlayacaq. İndiki 100 min nəfərdən 70-60 minə endirilməsi nəzərdə tutulur. Pentaqonun rəhbəri Pete Hegseth artıq Latviya, Litva və Estoniyanın müdafiə nazirlərini əmin edib ki, onların ölkələrindəki Amerika hərbi varlığı azalmayacaq. Trampın Rusiya-Ukrayna münaqişəsinin ABŞ-ın özü üçün deyil, ilk növbədə ABŞ-ın avropalı müttəfiqləri üçün problem olduğuna inanmasına baxmayaraq, o, Moskva ilə Kiyev arasında döyüşlərin həmin vaxta qədər dayanacağına inanmasa, genişmiqyaslı qoşunların ixtisarını planlaşdırmayacaq.

**V.VƏLİYEV**

# Hamiləlik və dəniz: istirahət, yoxsa risk?

***Yay aylarında hamilə qadınların dənizə getməsi həm faydalı, həm də müəyyən riskləri özündə daşıyan bir fəaliyyətdir. Bəs, hansı hamilələrə dəniz faydalı və risklidir? SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Hamiləlikdə dənizə getməyin FAYDALARI

*Fiziki rahatlıq və bədənə yüngüllük*

Suda üzmək hamiləlik zamanı artan bədən çəkisini daha az hiss etdirir. Əzələlərə və oynaqlara düşən yük azalır, bel və belomza ağrıları yüngülləşir.

### Qan dövranının yaxşılaşması

Suda hərəkət qan dövranını stimullaşdırır, ayaqlarda şişkinliyi azalda bilər. Varikoz damarlarının qarşısını almağa kömək edir.



### Psixoloji rahatlama

Dəniz havası, günəş və su hamilə qadının stressini azaldır. Sakitləşdirici təsiri sayəsində yuxu keyfiyyətini artırır.

### Vitamin D sintezinin dəstəklənməsi

Günəş işığı dəridə D vitamininin sintezini artırır, bu da körpənin sümük inkişafında mühüm rol oynayır (günəş vannası qısa və nəzarətli olmalıdır)

## Hamiləlikdə dənizə getməyin RİSKLƏRİ



*İnfeksiya riski*

Bəzi çimərliklərdə suyun gigiyenik vəziyyəti yetərli deyil. Vaginada turşu mühitin pozulması ilə göbələk və bakterial infeksiyaların riski artır.

### Günvurma və susuz qalma

Hamilə qadınların bədən temperaturu daha tez yüksəlir. Uzun müddət gün altında qalmaq başgicəllənmə, ürəkbulanma və hətta bayılma ilə nəticələnə bilər.

### Dəri problemləri

Günəşə həssaslıq artdığı üçün dəridə piqment ləkələri (xloazma) əmələ gələ, UV şüalarına məruz qalmaq dərini zədələyə bilər.

### Qan təzyiqinin dəyişməsi və əzələ spazmları

Soyuq suya qəfil daxil olmaq qan təzyiqini kəskin dəyişdirə və spazma səbəb ola bilər. Xüsusilə hipertoniya və ya ürək problemi olan hamilələr üçün təhlükəlidir.

## TÖVSİYƏLƏR və EHTİYAT MƏQAMLARI

Ginekoloqun icazəsi olmadan dənizə getməyin.

Çimərlik seçərkən rəsmi və gigiyenik baxımdan nəzarət olunan yerlərə üstünlük verin.

Günün isti saatlarında (12:00-16:00 arası) günəşdə qalmayın.

Günəşdən qoruyucu krem, geniş kənarlı papaq və UV-filtrli eynəklərdən istifadə edin.

Bol maye qəbul edin.

Suya tədricən daxil olun - xüsusilə soyuq dənizlərdə.

Yalnız dayaz suda və nəzarətli şəraitdə üzün.

Dənizə getmək hamilə qadın üçün həm fiziki, həm də emosional cəhətdən faydalı ola bilər. Lakin bu, yalnız həkimlə məsləhətləşdikdən sonra və müəyyən təhlükəsizlik tədbirləri gözlənildikdə mümkündür. Əks halda, dənizə getmək körpənin və ananın sağlamlığı üçün arzuolunmaz nəticələrə səbəb ola bilər.

Yay aylarında dənizə getmək və ya üzmək hamilə qadınların hamısı üçün uyğun deyil. Bəzi hamilələr üçün bu fəaliyyət faydalı və təhlükəsiz sayılırsa da, digərləri üçün riskli ola bilər.

## Dənizə getməsi MÜNASİB OLAN hamilələr:





*Normal və sağlam keçən hamiləliklər*

Heç bir ciddi risk faktoru (erkən doğum təhlükəsi, yüksək təzyiq, qanaxma və s.) yoxdursa, Dölün inkişafı normal gedirsə və həkim icazə veribsə.

### İlk və ikinci trimestrdə olanlar

Xüsusilə 13-28-ci həftələr arası ən təhlükəsiz dövr hesab olunur. Bu dövrdə ana daha enerjili olur, hamiləliyə adaptasiya olunub, risklər nisbətən azdır.

### Fiziki aktivliyə öyrəşmiş hamilələr

Hamiləlikdən əvvəl üzgüçülük və yüngül idmanla məşğul olanlar üçün su fəaliyyəti bədənə əlavə stress yaratmır. Əzələ tonusu və koordinasiyası yaxşı olan qadınlar suya daha tez adaptasiya olur.

### Qan təzyiqi və şəkər səviyyəsi stabil olanlar

Bu göstəriciləri nəzarətdə olan hamilələr üçün günəş vannası və dəniz havası əlavə fayda verə bilər.

## Dənizə GETMƏSİ MƏSLƏHƏT GÖRÜLMƏYƏN hamilələr:

- Erkən doğum riski olanlar.
- Dölün inkişaf geriliyi müşahidə edilən hallar.
- Çoxlu hamiləlik (əkiz, üçəm və s.).
- Qanaxma və ya ləkələnmə ilə müşayiət olunan hamiləliklər.
- Uşaqlıq boynunun vaxtından əvvəl açılması (servikal yetərsizlik).
- Hamiləliklə əlaqədar yüksək qan təzyiqi (preeklampsiya riski).
- Ciddi anemiya və ya ürək-damar xəstəlikləri.

### Üçüncü trimestrdə bəzi hallarda

-34-cü həftədən sonra bədənin balansı zəiflədiyi üçün düşmə və yıxılma riski artır.

-Bu dövrdə həkimlə daha diqqətli məsləhətləşmək şərtdir.

Hamiləlik fərdi və dəyişkən bir prosesdir. Dənizə getmək planınız varsa:

Əvvəlcə ginekoloqla məsləhətləşin, Təbii doğuma hazırlaşan, normal və sabit hamiləliyi olan qadınlar üçün bu fəaliyyət daha çox uyğundur. Risk daşıyan hamilələr isə həkimin göstərişi olmadan dənizə getməməlidir.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Sağlam biznes mühiti

Ölkəmizdə sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaradıb. Sahibkarlara ayrılan diqqətin nəticəsidir ki, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu. Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" məlum Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu. Azərbaycanda məhz dövlət səviyyəsində və bütün ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.





## KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA DƏSTƏK

Qeyd edək ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması bu sahədə mühüm addımların atılmasında əhəmiyyətli rol oynadı. Sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılması yolu ilə əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəlib. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə sosialyönümlü layihələrin həyata keçirilməsidir. Layihələrə cəlb olunan insanlar müəyyən müddətdən sonra heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq, tərəvəzçilik (istixana), pərakəndə satış kimi istiqamətlər üzrə uğurlu şəkildə özünməşğulluq fəaliyyəti qurublar.

Xatırladaq ki, "ABAD" pilot layihə olaraq fəaliyyətə Masallı rayonunda 7 təsərrüfatçı ailə ilə başlayıb. "ABAD"çılarla həyata keçirilmiş kommersiya fəaliyyəti nəticəsində onların minlərlə çeşiddə sənətkarlıq, qida və digər müxtəlif növ məhsulları satışa çıxarılıb.

Ailə Biznesinə Asan Dəstək - "ABAD" ın məhsulları artıq dünya ölkələrinin bazarlarında yer alıb. Qeyd edək ki, Amerika Birləşmiş Ştatları bazarına ixrac olunub və satışa start verilib.Sözügedən məhsullara bal, mürəbbələr, souslar, çay və fıstıq kimi qida məhsulları daxildir. Əsas məqsəd Azərbaycan mətbəxinin zəngin dadlarını dünya miqyasında tanıtmaq və yerli brendləri geniş alıcı kütləsinə təqdim etməkdir.



## SOSİALYÖNÜMLÜ LAYİHƏLƏR SIRASINDA AİLƏ BİZNESİ

ABAD-ın bir sıra regional mərkəzləri - Masallı, Balakən, Quba, İmişli və s. mövcuddur. Qubada "ABAD Factory" İstehsalat Kompleksi, Şəkidə "ABAD" Keramika Mərkəzi fəaliyyət göstərir. Bunlardan əlavə, əl işi suvenirləri satışa çıxarılan "ABAD etno-butiki" və "Bravo" marketlərində ABAD ailələrin qida məhsullarını satışa çıxarılan "ABAD bakaleya" mövcuddur.

Məşğulluğun, qeyri-neft ixracının artırılması və digər strateji məsələlərdə özəl sektor həlledici rola malikdir. Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ötən dövr ərzində ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə aktiv məşğul olanların sayı 683 mindən çoxdur.

Əhalinin məşğulluq imkanlarının artırılması, bölgələrdə sosial infrastrukturun yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali təbəqələrinə dövlət qayğısının artırılması yönündə həyata keçirilən tədbirlər insanlarda məmnunluq yaradır. Ailə biznesini qurulması və inkişafı da sosialyönümlü layihələr sırasında uğurlu hesab olunur. Təbii ki, bunun böyük nəticələri var.



## 2030-CU İLƏDƏK ƏMƏK MƏHSULDARLIĞI 2 DƏFƏYƏ QƏDƏR ARTIRILACAQ

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" dövlət başçısının məlum Sərəncamının yüksək səviyyədə icrası və özünüməşğulluq fəaliyyətinin təşkili ilə əlaqədar müvafiq normativ-hüquqi bazanın formalaşdırılması istiqamətində ardıcıl işlər görülüb. Bu gün ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi sağlam biznes mühitini yaradıb. Təbii ki, bu da fərdi təsərrüfata sahib olan iştirakçılar onların özünüməşğulluğunun təmin olunması, ailə gəlirlərinin artırılması, ümumən biznes imkanlarına malik olmaları üçün yaradılan şərait onlarda məmnunluq hissini yaradır.

Məlumdur ki, Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilib. Sözügedən Strategiyaya əsasən, iqtisadiyyatda rəsmiişləyənlərin qeyri-kənd təsərrüfatı sahəsində ümumi məşğul əhaliyə nisbətini 2030-cu ilədək 80 faizə çatdırmaq nəzərdə tutulub. 2030-cu ilədək işsizliyin səviyyəsinin 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirilməsi nəzərdə tutulub. Yüksək əlavə dəyər yaradan və çox əmək sərf olunan sahələrə diqqət yetirməklə, iqtisadi məhsuldarlığın daha yüksək səviyyəyə qalxmasına nail olmaq və 2030-cu ilədək əmək məhsuldarlığını 2 dəfəyə qədər artırmaq nəzərdə tutulub. 2030-cu ilədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmağa nail olunacaq.

Sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərinə əlçatanlığını asanlaşdırmaq üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, sənədlərin notarial təsdiq olunması şərti ləğv edilib. Pandemiya dövründə sahibkarlara göstərilən dəstək dövlətin daim sahibkarların yanında olduğunun göstəricisi idi. Bu tədbirlər sahibkarların iqtisadi fəallığının bərpası və artmasına, iqtisadi inkişafın sürətlənməsinə imkan vermiş oldu.



## AQRAR SEKTOR MODERNLƏŞİB

Biznes mühitinin yaxşılaşdırılması üçün davamlı islahatların nəticəsi beynəlxalq hesabatlarda qeyd olunur. MDB ölkələri arasında lider mövqelər sırasında Azərbaycan yer alıb. Prezidentin 20 dekabr 2022-ci il tarixli Fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. İnvestisiya təşviqi sənədi 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları və müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyən edilən istiqamətlər üzrə strateji layihələrə verilir. Aqropark bildiyimiz kimi, müasir texnologiya və üsulların tətbiqi yolu ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması və xidmətlərin göstərilməsi, o cümlədən məhsulların saxlanılması, çeşidlənməsi və satışı üçün istifadə olunan, bu sahədə sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Dünya iqtisadiyyatında aqrar sektorun modernləşdirilməsi - yeni texnologiyaların tətbiqi ilə təsərrüfatlarda fəaliyyətin optimallaşdırılması, itkilərə yol verilməməsi, məhsuldarlığın artırılması əsas prinsiplərdəndir. Azərbaycanda da son illər qeyri-neft sektorunun inkişaf vektorlarından biri sayılan aqrar-sənayeyə böyük önəm verilir və adıçəkilən sahəyə sərmayələr yatırılması təmin edilir. Bununla əlaqədar illər öncə müvafiq hüquqi baza da yaradılıb. Yeni meyarlara ekoloji nöqteyi-nəzərdən əhəmiyyətli olan tullantıların təkrar emalı fəaliyyət sahəsi əlavə olunub, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiq edilib. Hazırda strateji layihələr üzrə istiqamətlərin müəyyən olunması ilə bağlı işlər aparılır.

Görülən tədbirlər deməyə əsas verir ki, Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mərkəzi Gömrük Hospitalının nevroloqundan: “Dəniz havasının sinir sisteminə möcüzəvi təsiri”

***Yay aylarında dəniz sahillərində vaxt keçirmək, sadəcə istirahət deyil, həm də sağlamlıq baxımından mühüm bir fürsətdir. Xüsusilə nevroloji sistem üçün dəniz havasının müalicəvi və dəstəkləyici rolu az qala təbiətin müalicəsidir. Dəniz havasının insan psixikasına və beyin fəaliyyətinə necə təsir etdiyi, stress və yuxusuzluq kimi müasir dövrün problemlərində hansı rolu oynadığı barədə daha ətraflı məlumat almaq üçün Mərkəzi Gömrük Hospitalının təcrübəli nevroloqu Mənsumə Talıbovaya müraciət etdik.***



*- Mənsumə həkim, yay aylarında insanlar dəniz sahillərində istirahət etməyə üstünlük verirlər. Nevroloji baxımdan dəniz havası orqanizmə necə təsir edir?*

- Dəniz havasının insan sağlamlığı, xüsusilə də sinir sistemi üzərində göstərdiyi təsir olduqca əhəmiyyətlidir. Tərkibindəki təbii duz, yod, maqnezium, brom və digər minerallar, eləcə də mənfi yüklü ionlar sayəsində dəniz havası nevroloji baxımdan çoxşaxəli müsbət təsirlər yaradır.

İlk növbədə, mənfi ionlar - yəni hava







molekullarının oksigenlə zənginləşmiş və elektriklə yüklənmiş forması - beyində serotonin və melatonin kimi neyromediatorların istehsalını stimullaşdırır. Serotonin əhval-ruhiyyənin stabilləşdirilməsində, melatonin isə yuxu ritminin tənzimlənməsində mühüm rol oynayır. Bu təsir nəticəsində insan özünü daha sakit, balanslı və enerjili hiss edir.

Mənfi ionlarla zəngin dəniz sahilində beyin fəaliyyəti stabilləşir, kronik stress azalır və ağrıya həssaslıq azalır. Eyni zamanda, dəniz sahilindəki dalğaların təkrarlanan hərəkəti və ritmik səs beyində alfa dalğalarını aktivləşdirir. Bu dalğalar dərin rahatlama və meditasiyaya bənzər bir vəziyyət yaradır. Bu da həm yuxu problemlərinin aradan qaldırılmasına, həm də emosional gərginliyin azaldılmasına kömək edir.

Təbiətlə təmasda olmaq - xüsusilə də açıq dəniz mənzərəsinə baxmaq - vizual sistemdə sakitləşdirici impulslar yaradır. Açıq mavi rənglərin üstünlük təşkil etdiyi dəniz, səma kimi mənzərələr beyində parasempatik sinir sisteminin aktivliyini artırır. Bu isə bədənin istirahət və bərpa mexanizmini gücləndirir. Digər vacib faktor isə oksigen tərkibinin yüksəkliyi və havanın təmizliyidir. Bu, beyin hüceyrələrinin oksigenlə təmin olunmasını artırır, zehni diqqət və konsentrasiyanı yaxşılaşdırır.

Nəticə etibarilə, dəniz havası nevroloji cəhətdən:

* Yuxu keyfiyyətini artırır, yuxusuzluqla mübarizəyə kömək edir;
* Baş ağrısı, migren və xroniki yorğunluğu azaldır;
* Depressiv əlamətləri yüngülləşdirir;
* Emosional sabitlik və daxili harmoniya yaradır;
* Konsentrasiyanı artırır və yaddaşı gücləndirə bilər.

Bu səbəbdən də, yay aylarında dəniz sahillərində vaxt keçirmək təkcə istirahət deyil, həm də nevroloji sağlamlığın qorunması baxımından təbii terapiya hesab oluna bilər.

*-Bu təsirlər hansı konkret nevroloji problemləri olan pasiyentlər üçün faydalı ola bilər?*

- Ən çox xroniki stress, panik atak, yuxusuzluq, depressiv hallar, migren və vegetativ sinir sistemi pozuntuları olan xəstələr üçün faydalıdır. Sinir sistemi pozuntuları olan xəstələrin bu cür mühitdə 20 dəqiqəlik gündəlik gəzinti belə sinir sistemini bərpa edə bilər. Dəniz havası və günəş işığı birlikdə vitamin D sintezini stimullaşdırır, serotonin səviyyəsini artırır və bu da depressiya simptomlarını azaldır. Həmçinin, dəniz havası və mühiti vegetativ sistemin balansını bərpa edir. VSSP-dən əziyyət çəkən şəxslərin 70%-də təbiətdə - xüsusilə dəniz sahilində - keçirdikləri zamanlarda simptomların xeyli yüngülləşdiyini və həyatlarının daha rahat olduğu müşahidə olunur.

*- Dəniz havasının beyin fəaliyyətinə və diqqətə də təsiri varmı?*

- Bəli, əlbəttə. Şəhər mühitində insan beyni səs-küy, süni işıq, vizual yüklənmə səbəbindən daima gərgin olur. Dəniz kənarında bu faktorlar aradan qalxdığı üçün beyin istirahət edir, diqqət və zehni çeviklik artır. Bu xüsusilə zəif diqqət, zehni yorğunluq, mental tükənmə yaşayan insanlar üçün çox vacibdir. . Bu təbii mühitdə beyindəki stress hormonlarının səviyyəsi azalır, bununla da diqqət qabiliyyəti və informasiya emal etmə sürəti yaxşılaşır. Bu xüsusilə diqqət çatışmazlığı, zehni yorğunluq və mental tükənmə yaşayan insanlar üçün çox vacibdir.

*- Nevroloji sağlamlıq üçün sahil mühitində istirahət nə qədər tez-tez və hansı şəkildə tövsiyə olunur?*

- Təbii ki, hər bir pasiyentin fərdi vəziyyəti nəzərə alınmalıdır. Amma ümumi olaraq gündəlik 30-60 dəqiqəlik dəniz sahili gəzintiləri faydalıdır. Bu zaman həm fiziki aktivlik artır, həm də sinir sistemi rahatlayır. Səhər saatlarında və gün batımında sahildə olmaq daha effektivdir. Günəş vannası isə saat 10:00-dan əvvəl və 17:00-dan sonra qəbul edilməlidir.

*- Dəniz havasının möcüzəli təsirlərindən il boyu faydalanmaq mümkündür, yoxsa yalnız yay aylarında dəniz sahilinə getmək daha məsləhətdir?*

- Dəniz havasının insan sağlamlığına faydaları təkcə yay mövsümü ilə məhdudlaşmır. Əksinə, düzgün geyim və tibbi tövsiyələr nəzərə alınmaqla, dəniz sahilində olmaq ilin bütün fəsillərində, xüsusilə bahar və payız aylarında da çox faydalı ola bilər. Hətta bəzi hallarda qış aylarında dəniz havası ilə terapiya daha effektiv nəticə verir.

Yayda dəniz havasının faydası, əlbəttə ki, günəş işığı, D vitamini və açıq hava ilə birlikdə maksimal olur. Ancaq hava tərkibi - yəni dəniz havasının minerallarla, duz və mənfi ionlarla zəngin olması ilin bütün fəsillərində qorunur. Bu komponentlər dəyişmir, sadəcə havanın temperaturu və rütubəti dəyişir. Payız və bahar aylarında allergik reaksiyaların və hava dəyişikliklərinə bağlı baş ağrılarının azaldılmasında kömək edir. Belə ki, havaların nisbətən sərin olması autonom sinir sistemini tarazlayır, qan təzyiqi və ürək ritmini stabilləşdirir. Həmçinin, stress səviyyəsinin azaldılması və sezonal depressiyanın qarşısının alınması üçün mükəmməl mühitdir.

* Qış aylarında dəniz sahilində oksigen və yod tərkibi daha da yüksək olur, çünki soyuq hava duzlu hissəcikləri daha uzağa daşıyır. Bu dövrdə sahillər daha sakit və səs-küysüz olur ki, bu da nevroloji rahatlıq və meditasiv effekt yaradır, yuxu ritmini və psixoloji stabilliyi yaxşılaşdırmaqda effektiv olur. Eləcə də tənəffüs yolları və beyin oksigenləşməsi baxımından da çox əlverişlidir.

*- Sonda oxucularımıza nə tövsiyə edərdiniz?*

- Dəniz havası təbiətin bizə bəxş etdiyi ən qiymətli sağlamlıq mənbələrindən biridir. Xüsusilə nevroloji problemlər yaşayanlar üçün bu, dərmanlarla yanaşı, əlavə və təbii bir müalicə üsulu kimi çox faydalıdır. İş, stres, gündəlik qayğılar bizi ruhən və fiziki yorğunluğa sürükləyir. Buna görə də, mümkün olduqca ilboyu dəniz kənarında təmiz hava udmaq, dalğaların səsini dinləmək, günəşin və təbiətin enerjisini hiss etmək sinir sistemimizi sakitləşdirir, diqqətimizi bərpa edir və ümumi sağlamlığımıza yaxşı təsir göstərir. Bu kiçik, amma dəyərli fasilələr sayəsində həyat keyfiyyətiniz yüksələr, stress səviyyəniz azalar. Eləcə də, belə təbii terapiya həm özünüz, həm də yaxınlarınız üçün faydalı və səmərəli olacaq.

***Müsahibəni apardı:***
***Mərkəzi Gömrük Hospitalının***
***PR mütəxəssisi Dilarə Zamanova***

# Ermənistan həlledici seçim qarşısında



***Ermənistanda parlament seçkilərinin 2026-cı il iyunun 7-də keçiriləcəyi ilə bağlı açıqlamadan sonra ölkədə qalmaqalların əhatə dairəsi genişlənir. Sonuncu parlament seçkilərində Ermənistan baş naziri Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyası 54 faiz üstünlüklə 71 deputat kürsüsünü qazanmışdı. Baş nazirin komandası Ermənistan cəmiyyətinin müharibəni istəmədiyi, xalqın övladlarının başqa dövlətin torpaqlarında işğalçı olaraq ölməsinə etiraz etdikləri üçün növbədənkənar parlament seçkisində uğur qazanmışdı. Bu gün Ermənistanda baş verənlər, daim Rusiyanın əlində vasitə olan kilsə ilə dövlət arasında yaranan qarşıdurmalar, rəsmi Kremlin kadrları olan sabiq prezidentlərin kreslo uğrunda mübarizələri, Nikol Paşinyanın Qərblə Rusiya arasında yerdəyişmə seçimləri ictimai- siyasi vəziyyəti mürəkkəbləşdirir.***

Kilsə-din amilindən istifadə etməklə Paşinyana qarşı birləşən qüvvələr ilk olaraq "Vətən naminə" Tavuş" hərəkatının lideri, keşiş Baqrat Qalstanyanın başçılığı ilə keçirilən yürüş və mitinqlərdə baş nazir əleyhinə təxribatlara başladılar. "İstefa" tələbləri səsləndirildi. Erməni Apostol Kilsəsi (EAK) ətrafında yaranan qalmaqallar dövlət-din münasibətlərini daha da kəskinləşdirdi. Baqrata dəstək verən Ümumerməni katolikosu II Qaregini müdafiə etməklə öz məqsədlərinə çatmaq istəyən sabiq prezidentlər Robert Koçaryanın və Serjik Sarkisyanın tərəfdarları meydanlarda göründülər. Paşinyanın Moskvadakı pravoslav kilsəsinə bağlı









Ümumerməni kilsəsinin başçısını əxlaqsızlıqda, dini əqidəsinə zidd həyat tərzində ittiham edərək, onu "dələduz"" adlandırması Rusiyadakı din xadimlərini də narahat etdi. Müxalifyönümlü, başqa sözlə deyilsə rusiyameyilli iş adamlarının fəaliyyəti ilə bağlı aparılan yoxlamalar milyarderləri təşvişə saldı. Paşinyanın Ankaraya səfərindən, Əbu-Dabidə Prezident İlham Əliyevlə görüşündən, Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın doğma yurdlarına qayıtması, Zəngəzur dəhlizinin bərpası istiqamətində danışıqların sürətlənməsi ilə bağlı müzakirələrdən sonra daha da hiddətlənən antitürk qüvvələr baş nazirə qarşı birləşiblər. Hazırda seçim qarşısında olan Ermənistan ictimaiyyəti , siyasi dairələr biri-birindən fərqli vəziyyətdən çıxış yollarını axtarırlar. Antitürk, anti-Azərbaycan siyasətdən imtina, Rusiyanın kadrı olan II Qaregeni uzaqlaşdırmaqla yeni kilsə şəbəkəsi formalaşdırmaq, Paşinyanın irəli sürdüyü " Real Ermənistan" konsepsiyasını qəbul etmək, daşnakların əsrlərdən bəri xəyallarında yaşatdıqları sərsəm "dənizdən dənizə böyük Ermənistan"" xəyalları, yeni konstitusiyanın qəbulu, qonşu dövlətlərlə münasibətləri normallaşdırmaq Suallar çox olduğu kimi, problemlərin həlli yollarının müxtəlifliyi ilə bağlı açıqlamalar İrəvanın siyasi həyatını cəhənnəmə çevirib. Baş nazir 7 ili arxada qalan hakimiyyətinin davamını istəyir. Yeni dövrə yol isə islahatlar tələb edir. Ən əsası odur ki, Türkiyə və Azərbaycanla münasibətlərin normallaşması Ermənistanın dövlət kimi mövcudluğuna təminat ola bilər. Bu, həm də yeni Ermənistan qurmağın yoludur.

Rusiya ilə münasibətləri kritik həddə olan Ermənistanın baş naziri Nikol Paşinyanın qədim türk torpağı Altayda keçirilən Beynəlxalq Ekoloji Konfransda iştirakı, Rusiyanın Baş naziri Mixail Mişustinlə yanaşı dayanması da əlavə söh-söhbətə səbəb olub. Son vaxtlarda Paşinyanı gözdən salmağa çalışan Moskvanın İrəvana yenidən "jestini" Kremlin geosiyasi oyunlarının növbəti şousu hesab edən qərbyönümlülər bu "yaxınlaşma" ilə razılaşmırlar. Ölkəsinin Avrasiya İqtisadi İttifaqında (AİI) fəaliyyətini davam etdirmək niyyətində olduğunu bildirən Paşinyan belə iki ölkə arasındakı münasibətlərə dağıdıcı təsir göstərən şəxslər olduğunu təsdiqləyib. İrəvanda Zəngəzur dəhlizinə fərqli yanaşmalar isə ölkədə daha çox ajiotaj yaradıb. Dəhlizlə bağlı müzakirələrin intensivləşməsi, sülh müqaviləsinin imzalanması istiqamətində ümidverici informasiyaların yayılması, Rusiyanın Gümrüdəki 102-ci bazasına yeni texnika və hərbçilər daşıması fərqli məlumatlar olsa da nəticədə bir ölkənin daxilində ziddiyyətlrin yaranması üçün əsas səbəblərdəndir. Paşinyanı Türkiyə və Azərbaycanın mənafeyinə xidmətdə günahlandıran Rusiya meyillilərlə Qərbə üz tutanlar arasında güclənən rəqabət, dövlət-din münasibətlərinin dramatik səviyyəyə qalxması ölkədə davam edən çoxprofilli münaqişələri gərginləşdirir. Paşinyanla razılaşmayanlara, onun sülh sazişi ilə bağlı danışıqlar masasında güzəştlərini pisləyənlərə qarşı təmizləmə prosesi 2026-cı il seçkilərinə qədər davam edəcək. Təbii ki, bu məsələdə maneələr də olacaq. Revanşistlər xalqı Azərbaycanla müharibəyə təhrik edir. Sərhəddə atəşkəsi pozmaqla fövqəladə vəziyyət elan etmək, bununla da parlament seçkilərini yubatmaq istəyənlər də vardır. Hazırda davam edən "beşinci kolon"u zərərsizləşirmək variantı da qüvvədədir. Hətta seçki saxtakarlığı tərəfdarları da bu istiqmətdə planlarını həyata keçirirlər.

Amma bütün hallarda ən səmərəli variant bölgədə sabitliyin yaranması üçün sülh sazişinin imzalanması, Zəngəzur dəhlizinn açılması olacaq.

***Xuraman İsmayılqızı***

# Avropanın Fələstin dövlətini tanıması regiona nə vəd edir?





Dünyanı cənginə alan müharibələr, münaqişələr fonunda ən amansızı və dəhşətlisi İsrail- Fələstin qarşıdurmasıdır. Bu qarşıdurma həm də uzun müddət davam etməsinə görə diqqəti cəlb edir. 1948-ci ildə İsrail dövlətinin yaranması ilə bölgədə qanlı müharibənin əsası qoyuldu. 1967-ci ildə 6 günlük müharibə zamanı İsrail tərəfindən Qəzza zolağı, Colan təpələri və digər ərazilər işğal olundu. Müharibənin dayandırılmasına dair ərəb ölkələri ilə İsrail arasında bir sıra anlaşmalar imzalansa da, həmin anlaşmalar sadəcə kağız üzərində qalıb. 1993-cü ilin oktyabr ayında İsrail ilə Fələstin arasında "Oslo sazişi" kimi tanınan müqavilə imzalandı. Müqaviləyə görə, İordan çayının qərb sahilində və Qəzza zolağında özünüidarəetmə tətbiq olundu və Fələstin Milli Administrasiyası yaradıldı. Bir qədər sonra isə İsrail Qəzza zolağında tikilən yaşayış məntəqələri söküldü və İsrail ordusu geri çəkildi. İsrail ordusunun ərazini tərk etməsindən sonra indiki fars-molla rejiminə yaxınlığı ilə seçilən radikal dini qüvvələr formalaşmağa və güclənməyə başladılar. Hətta 1987-ci ildə fars-molla rejiminin təşəbbüsü ilə yaradılan HAMAS təşkilatı "Oslo sazişi"ni tanımaqdan imtina etdi. Bundan sonra tərəflər arasında qarşıdurma daha amansız xarakter aldı. HAMAS dini təşkilatın Şərqi Qüds daxil olmaqla İsrail ərazilərində terror aktları törətməsi, xüsusilə də Misirlə sərhəddə yerləşən İsrailə məxsus sərhəd-keçid məntəqəsinə edilən hücumdan sonra Təl-Əviv 2006-cı il iyunun 28-dən noyabrın 1-dək genişmiqyaslı əməliyyatlar keçirdi. Qanlı döyüşlər zamanı 546 fələstinli, 23 İsrail əsgəri öldürüldü.

## Osmanlı imperiyasının bir parçası olmuş Fələstin

Məlumat üçün qeyd etmək lazımdır ki, 15 noyabr 1988-ci ildə qurulmuş Fələstin dövləti rəsmi olaraq Fələstin Azadlıq Təşkilatı (FAT) tərəfindən idarə olunur. Bu dövlət BMT-nin 141 üzvü tərəfindən tanınır və 2012-ci ildən BMT-də qeyri-üzv müşahidəçi statusuna malikdir. Lakin İsrail tərəfi Fələstinin dövlət kimi tanınmasına qarşıdır. Bu da tərəflər arasında beynəlxalq tədbirlərdə bir-birinə qarşı ittihamlar irəli sürmələrinə gətirib çıxarır. Ərəb ölkələri, eləcə də Türkiyə Fələstini daim müdafiə edir. Xüsusilə də Türkiyə siyasi hakimiyyəti və xalqı daha əzmlə və fədakarlıqla fələstinliləri dəstəkləyir və onların haqq savaşını müdafiə edirlər. Bu da təbii olaraq ondan irəli gəlir ki, zamanında Fələstin əraziləri Osmanlı imperiyasına daxil olub. Yəni Fələstin əraziləri Osmanlı imperiyası tərəfindən idarə olunub. Ancaq Birinci Dünya müharibəsində Osmanlı imperiyasının məğlub olması fələstin - yəhudi qarşıdurmasını qabardır. Bir sıra aparıcı dövlətlər Fələstində yəhudi xalqı üçün "milli ev" yaratmaq niyyətində idi. Hələ də 1917-ci ildə Böyük Britaniya xarici işlər naziri Artur Balfurun Britaniyanın yəhudi icmasına İsrail dövlətinin yaradılmasına vəd vermişdi. Osmanlı İmperiyası yıxıldıqdan sonra, Böyük Britaniya Fələstin üzərində mandata sahib olur və yəhudilərə faktiki dövlət qurmağı özündə ehtiva edən Balfur Bəyannaməsi 1922-ci ildə Millətlər Liqası (indiki BMT) tərəfindən təsdiqlənir.

Uzun sürən qarşıdurmanın qarşısını almaq məqsədi ilə 1947-ci ildə BMT-də Fələstinin ayrı-ayrı yəhudi (56%) və ərəb (44%) dövlətlərinə bölünməsinə və Qüdsün (Yerusəlimin) BMT nəzarəti altında xüsusi statusa malik ayrıca bir şəhərə çevrilməsinə barədə qərar qəbul edilir. 1990-cı illərdə Oslo razılaşması ilə yəhudi və fələstin dövlətlərinin yaradılması və birgəyaşayış prinsiplərinin müəyyən edilməsi qərara alınır.

## Başqa kənar qüvvələrin əlində hərbi və siyasi alətə çevrilən təşkilatlar

Yaxın Şərqdə Fələstinin azadlığı üçün yaradılan təşkilatlar HAMAS, FAT, FİC, FQDC, FAXC-BK, FMH, ƏƏŞB və sair təşkilatlar başqa kənar qüvvələrin əlində hərbi və siyasi alətə çevrildilər. Bəzi hallarda kənar qüvvələrin maraqları toqquşan zaman Fələstin ərazilərində yaradılan təşkilatlar arasında qarşıdurmalar baş verdi. Bundan istifadə edən İsrail asanlıqla Qəzza və digər Fələstin ərazilərində hərbi əməliyyatlar keçirməklə planlarını həyata keçirib. 1948,1956, 1967, 1973, 2024-cü illər də baş verən hərbi toqquşmalar zamanı İsrail demək olar ki, bütün kollektiv ərəb dövlətlərinə, Fələstinə qalib gəlib.

İsrail hərbi qüvvələri 2008-ci il dekabrın 27-dən 2009-cu il yanvarın 18-dək Qəzza zolağında "Tökmə qurğuşun" əməliyyatını həyata keçirdi. Hərbi əməliyyatlarda 10 mindən çox ehtiyatda olan əsgər də daxil olmaqla üç nizami İsrail briqadasası iştirak etmişdir. HAMAS, Livanda yerləşən Hizbullah təşkilatları İsrailə qarşı sərt cavab tədbirləri görməyə çalışdılar. BMT-nin məlumatına görə, Qəzza zolağında üç həftə davam edən döyüşlər zamanı təxminən 1400 fələstinli həlak oldu ki, onların da yarıdan çoxu mülki şəxslər idi. Fələstin Mərkəzi Statistika Bürosunun məlumatına görə, Qəzza zolağında iqtisadi itkilər təxminən 2 milyard dollar təşkil etdi, 4 minə yaxın ev tamamilə dağıldı, 11 minə yaxın binaya ziyan dəydi, 100 minə yaxın fələstinli evsiz qaldı. Rəsmi məlumatlara görə, İsrail tərəfində 10 əsgər və 3 mülki şəxs həlak oldu, 120-yə yaxın insan yaralandı. İsraildə isə raket hücumları nəticəsində 50-yə yaxın evə ziyan dəydi. Əməliyyat İsrail xəzinəsinə 1-1,5 milyard dollara başa gəldi. Əməliyyat zamanı fələstinli yaraqlıların raket hücumlarının tam dayandırılmasına nail olmaq mümkün olmadı, lakin onların intensivliyi xeyli azaldı. Sonrakı illərdə HAMAS- İsrail arasında ara-sıra qarşıdurmalar yaşansa da, bu, mövcud sərhədlərin dəyişməsinə təsir göstərmədi. Yalnız 2014-cü il iyulun 8-dən avqustun 26-dək "Müdafiə xətti" adlı İsrailin keçirdiyi növbəti əməliyyatla Qəza zolağında HAMAS-ın ərazi itkisi ilə üzləşməsinə səbəb oldu. İsrail bu əməliyyata böyük piyada, mühəndis qoşunlarını, tank bölmələrini və Hərbi Hava Qüvvələrini cəlb etdi, 82 mindən çox ehtiyatda olan hərbçi xidmətə çağırıldı. Fələstinli yaraqlıların sayı müxtəlif mənbələrə görə 20-40 min nəfər idi. Döyüşlər zamanı Fələstin tərəfində 516-sı uşaq, 283-ü qadın olmaqla 2100-dən çox insan həlak oldu, 11 minə yaxın insan yaralandı. Qəzzada 18 minə yaxın ev dağıdıldı, 100 min insan evsiz qaldı. Qəza zolağının iqtisadi itkiləri 6 milyard dollar qiymətləndirildi. İsrail tərəfində isə 67 əsgər həlak oldu (bu 2006-cı ildə İkinci Livan Müharibəsindən sonra ən böyük hərbi itki idi, bu müharibədə 160-dan çox əsgər öldürülmüşdü), 500-dən çox əsgər yaralandı.

İsrail-Fələstin qarşıdurmasının aradan qaldırılması üçün dünyanın aparıcı dövlətləri müəyyən təşəbbüslərlə çıxış etdilər. Hətta tərəflərin bir-birinin ərazi bütövlüyünü, eləcə də sərhədləri daxilində dövlətlərini tanımaq təklifi ilə çıxış etdilər. Lakin yenə də kənar təsirlərin güclü olması səbəbindən bölgədə sülh yaratmaq mümkün olmayıb . HAMAS qruplaşmasının 2023-cü il oktyabrın 7-də İsrail ərazisinə təşkil etdiyi və 1200-dən çox insanın ölümünə səbəb olan hücumundan sonra vəziyyətin yaxın illərdə nizamlanmasının qeyri-mümkün olduğunu deməyə əsas verir. İsrailin HAMAS-a qarşı Qəzza sektorunda başlatdığı hərbi əməliyyatlar artıq 50 mindən çox fələstinlinin həyatına son qoyub.

## Avropa ölkələri Fələstinin müstəqil dövlətini tanımağa başlayır

İsrailin xarici işlər naziri Qideon Saar Fələstin torpaqlarının "İsrail torpaqları" olduğunu deyib. Ölkənin baş nazir Benyamin Netanyahu isə İsrail Fələstinə öz dövlətini yaratmağa imkan verməyəcək" açıqlaması fələstinlilərinin dövlət yaratmaq imkanının real vəziyyətini göstərir. Heç şübhəsiz ki, İsrail nəinki öz sərhədləri daxilində qalacaq, digər dövlətlər hesabına ərazilərini genişləndirəcək. İsrail 2024-cü ildə başlayan və bu gün də davam edən müharibə ilə yenidən Livan və Suriya hesabına ərazilərini genişləndirib. Lakin son vaxtlar İsrailin Qəzzada humanitar fəlakət yaratması, mülki əhaliyə qarşı daha amansız davranması dünya birliyini əsaslı düşnməyə məcbur edib. Hətta vəziyyət elə bir həddə çatıb ki, bir zaman İsrailin yaxın müttəfiqi olduğu iddia edilən Almaniya, Fransa kimi dövlətlər Fələstini dövlət olaraq tanıyacaqlarına dair bəyanatla çıxış edirlər. Fransa prezidenti E.Makron bildirib ki, Fransa BMT Baş Assambleyasının sentyabrda keçiriləcək sessiyasında Fələstin dövlətini rəsmən tanıyacaq. Bunu Fransa Prezidenti Emmanuel Makron X-də bildirib. O qeyd edib ki, bu qərarı sentyabrda BMT Baş Assambleyasında təntənəli şəkildə elan edəcək: "İndi ən vacibi Qəzzada müharibəni dərhal dayandırmaq və mülki əhaliyə yardım göstərməkdir".

E.Makron bildirib ki, hazırda Fələstinin HAMAS hərəkatının demilitarizasiyasını, həmçinin Qəzzanın təhlükəsizliyini və bərpasını təmin etmək lazımdır: "Nəhayət, Fələstin dövlətini qurmaq, onun həyat və qabiliyyətinə zəmanət vermək, silahsızlaşdırılmasını qəbul edərək və İsraili tam tanımaqla Yaxın Şərqin bütün xalqlarının təhlükəsizliyinə töhfə vermək imkanı vermək lazımdır". Fransa lideri Qəzza zolağında tezliklə atəşkəs əldə olunmasının vacibliyini də vurğulayıb. İsrailin ədliyyə naziri Yariv Levin Makronun Fələstin dövlətini tanımaq qərarını Fransanın tarixi üçün "qara ləkə" və terrorizmin birbaşa dəstəyi adlandırıb. Nazirin sözlərinə görə, "İsrail torpaqları israillilərə məxsusdur" və Makronun bəyanatı bu həqiqəti dəyişə bilməz. Levin həmçinin bildirib ki, artıq İsrailin suverenliyinin Yəhudeya, Samariya və İordan çayı vadisinə də şamil edilməsinin vaxtı çatıb.

BMT-nin Fələstin probleminin nizamlanması üzrə yüksək səviyyəli beynəlxalq konfransında çıxışı zamanı İordaniya baş nazirinin müavini və xarici işlər naziri Ayman əs-Safadi bildirib ki, Yaxın Şərqdə ədalətli və hərtərəfli sülhə nail olmağın yeganə yolu BMT-nin İsraillə yanaşı yaşayacaq Fələstin dövlətinin yaradılması qərarını həyata keçirməkdir: "Fələstin dövlətinin tanınması təcili zərurətə çevrilib və fələstinlilər danışıqlara başlamağa hazır olduqlarını bildiriblər. Lakin İsrail sülh prosesinə maneçilik törədir və öhdəliklərini yerinə yetirmir. Bu vəziyyətdə BMT Təhlükəsizlik Şurasının yəhudi dövlətinə qarşı tədbir görməsinin vaxtı çatıb".

Əs-Safadi beynəlxalq ictimaiyyətin diqqətini İsrailin Qəzza zolağı və İordan çayının qərb sahilində "sülh perspektivlərini sarsıdan və gərginliyi artıran" birtərəfli hərəkətlərinə yönəldib. "Biz İsraili dayandırmaq və humanitar fəlakətin davam etdiyi Qəzza zolağında faciəyə son qoymaq üçün hərəkətə keçməliyik".

İtaliyanın Baş naziri Ciorcia Meloni isə Fələstin dövlətinin çox tərəfdarı olduğum halda, onun yaradılmasına aparan bir prosesdən əvvəl tanınmasının tərəfdarı olmadığını söyləyib. Qeyd edib ki, o Fələstin dövlətinin tərəfdarıyam, amma indi bu, qeyri-məhsuldar addım ola bilər: Bunu bir neçə dəfə, o cümlədən Parlamentdə demişəm. Fələstin Administrasiyasına çatdırmışam, Makrona da demişəm. Fələstin dövləti olmadan onun tanınmasının ümumi məqsədə əks təsir göstərə biləcəyinə inanıram. Əgər mövcud olmayan bir şey kağız üzərində tanınırsa, problem həll olunmuş kimi görünəcək, lakin həll olunmamış qalacaq".

## Fələstin-Azərbaycan münasibətləri

Fələstin liderlərinin Azərbaycana qarşı qərəzli, əsasən də erməni lobbisnin maraqlarına xidmət edən fəaliyyət nümayiş etdirsələr də, ölkəmiz və xalqımız müsəlman təəssübkeşliyindən çıxış edərək daim fələstinlilərə dəstək göstərib. Hələ 1992-ci ilin 15 aprel tarixində Azərbaycan Respublikası ilə Fələstin Milli Hakimiyyəti arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol imzalanmışdır. Ötən illər ərzində ölkələrimiz arasında xüsusən də humanitar sahədə yaxşı əməkdaşlıq əlaqələri təsis edilmişdir. Azərbaycan dövləti Fələstin xalqına milyonlarla ABŞ dolları ilə ölçülən maliyyə yardımı göstərmişdir. İki ölkə arasında əlaqələri müsbət dəyərləndirmək olar. İstər ikitərəfli əsasda, istərsə də beynəlxalq təsisatlar çərçivəsində Fələstin Dövləti Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləmişdir. 28-29 iyun 2011-ci ildə Fələstin dövlətinin prezidenti Mahmud Abbasın Azərbaycana rəsmi səfəri zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında 4 sənəd imzalanmışdır. 22 aprel 2013- Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov, 30 mart 2023- Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fələstinə rəsmi səfərlər ediblər. Fələstin Dövlətinin xarici işlər və mühacirlər naziri Riyad Əl-Malikinin 2018, 2019 və 2023-ci illərdə Azərbaycana işgüzar səfərlər edib. Söz yox ki, rəsmi dövlət səfərləri xalqlarımız və dövlətlərimiz arasında əlaqələrin inkişafına mühüm töhfələr verir. Bundan sonra bu əlaqələrin daha da inkişaf edəcəyi şübhəsizdir. Çünki birincisi, hər iki xalqı islam amili birləşdirir, ikincisi isə dövlətlər rəhbərlərinin siyasi iradəsi mövcuddur.

***İLHAM ƏLİYEV***

# Dost: dağ da tək olanda qəribsəyir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*





***Elə ona görə də dağlar çox vaxt silsilə şəklində olur. Qəribsəməsin, "ürəyi" qübar etməsin deyə, həm də bir-birinə arxa-dayaq olsun deyə, dağ çiynini o biri dağa söykəyir. Yeri gələndə ondan güc alır, yeri gələndə "məsləhət". Yeri gələndə onlar da bir-birinin dilini tapır, "söhbətləşir", sevincini bölüşür, kədərini paylaşır. Sanki dağ mövcud olduğu Vətənin daş dostlarıdır, Vətən torpaqlarının keşikçisidirlər. Torpaqlar azaddırsa, düşmən nəfsindən, tapdağından kənardırsa, bu, dağların sevincidir, onlar bu sevinci birlikdə bölüşür. Yox, əgər Vətən torpaqları yağı əlindədirsə, dağlar bu zaman kədərlidir, bu kədəri də bir-biri ilə bölüşürlər***

Təbiətin bir parçası olan insan da dostluğu yurdunun, məmələkətinin dağlarından almayıbmı?

Axı dağ folklorumuzda da böyüklük, dostluq, arxa, hünər kimi göstərilir. Elə insanlarımız da zaman-zaman silsilə dağlardan güc alaraq çoxlu dostluqlar qazanıb, bu dostluq üçün canını verməyə hazır olub, dost dost yolunda özünü fəda edib. Bax, təbiətin bir parçası olmaq məhz onda olanları öz xarakterində inikasını yaratmaqdır.

Xalqımız digər dəyərləri kimi, dostluq kimi bir dəyəri də formalaşdırıb zamanla. Dost bu xalqın milli dəyərlərindən biridir. Öz ailə, milli dəyərlərini hər zaman başı üzərində tutan, ona kiçik bir xətər gəlməməsi üçün göz bəbəyi kimi qoruyan insanlar dostluq münasibətlərinə də eyni məntiqlə yanaşıblar. Bizdə belə bir deyim də formalaşıb ki, dost ki oldun, onu qoruyub saxlamalısan, ta başqa cür ola bilməz. Odur ki, Azərbaycan xalqı dostluqda, qonşuluqda sadiq, sayğılı bir xalq kimi tanınır.

## Dostlar müxtəlif bədənlərdə bir ruhdurlar

Həzrəti Əli dostların müxtəlif bədənlərdə bir ruh olduğunu deyirdi. Bəli, gözümüzü dünyaya açandan gördüyümüz dostluqlar belə olub. Ətrafımızda, qohumluqda, ailəmizin üzvlərində dostluq münasibətləri fonunda yalnız bu cür dostluqlar görmüşük. Görmüşük ki, həqiqətən də başqa-başqa valideynlərin övladları olan, ayrı-ayrı evlərdə yaşayan insanları bir ruh birləşdirir. Əslində başqa cür mümkün də deyil. İki insanın ruhu bir-birinə uyğun gəlməzsə, onların dostluğu yarana bilməz.



Biz belə dostluqları çox görmüşük. Bütün günü bir yerdə olan, axşamdan-axşama evlərinə getmək üçün ayrılan dostları, bir-biri üçün canını verməyə hazır olan dostları. Belə dostluq münasibətləri ətrafdakı insanlar tərəfindən də həmişə müsbət hal kimi dəyərləndirilib. Çünki dediyim kimi, dostluq bizim xalqın dəyərlərindən biridir. Elə buna görə də babaların dostluğunu oğulların, onların dostluğunu övladlarının davam etdirməsini də görmüşük.



Bu dostluqlarda bacı-qardaşlar da sanki birləşib. Dostun bacı-qardaşı bir olub, onların hər hansı problemi də fərqi olmadan dostların biri tərəfindən həllini tapıb. Olub ki, bu bacı-qardaşlar öz sirrini-sözünü öz qardaşına deyil, qardaşının dostuna deyib, köməyi ondan istəyib, ondan da alıb.

Dostlar iki ailənin birləşməsinə, sanki bir ailə içərisində böyüməsinə, heç bir qohumluq dərəcəsi olmayan insanların ən yaxın qohum kimi, bəlkə də ondan da artıq olmalarına şərait yaradıb. Belə ailələrin xeyirləri də, şərləri də bir olub. Çünki onları dostluq dəyərləri birləşdirib.

## Dost rahatlıq verən bir məlhəmdir

Bəli, dostluq bir məlhəmdir. Onu içərkən tapdığı rahatlığı insan başqa heç nədə tapa bilmir. Nə isə bir problemi olanda, hər hansı məsələ ilə üzləşəndə ən birinci dostunu axtarır. Axtarır ki, ürəyini ona boşaltsın. Onun yol göstərməsi, bəzən təsəllisi, bəzən ağıllı məsləhətləri insana əlçatmaz dağların zirvəsindən endirilən məlhəm kimi təsir edir. Hansı ki, dostundan əvvəl bu məsələni ailə üzvlərinə, ata-anasına da danışmışdı. Lakin ürəyi boşala bilməmişdi. Lakin dostuna danışandan sonra özündə bir yüngüllük, ürəyində bir sakitlik hiss edir. Bilmirəm, nədəndir, etibardanmı, inamdanmı, yoxsa yaxınlıqdanmı, dost özünə dostundan yaxın, onu ən yaxşı anlayacaq, yaralarına məlhəm ola biləcək ikinci bir insanı sanki görə bilmir. Bu, bəlkə də bir bağlılığın nəticəsidir. Bəlkə də inam hissinin üstünlüyüdür. Bəlkə də hələ də kəşf edilməmiş bir hissdir, kim bilir?..

Dostluqların da xətası, səhvi olur, sözsüz. Ya kiminsə dostların arasına girməsi ilə bu, baş verir, ya hansısa fikirləri uyğun gəlməyəndə. Lakin elə əsl dostlar da bu sınaqlardan çıxdıqdan sonra yaranır. Necə deyərlər, onlar belə çətinliklərlə sınanır və Cəlaləddin Ruminin söylədiyi kimi, anlayırlar ki, elə dostların xətası yadların doğrusundan yaxşıdır. Bunu dərk edən, deməli, dostluğun nə olduğunu çoxdan anlamışdır. Hər hansı fikir ayrılığı, söz-söhbət bir andaca olub keçir, ortaq fikir yaranır və hər şey heç nə olmayıbmış kimi davam edir.

## Kölgəyə, yoxsa günəşə?..

Belə bir aforizm də var ki, dostluq yaxşı adamla günəşə, pis adamla kölgəyə oxşayır. Elə bu səbəbdən də ata-babalarımızın həmişə yeniyetmə-gənclərə tövsiyəsi olur ki, elə dost seçin ki, yanılmayasınız. Həqiqətən də bunun da şahidi olmuşuq ki, yaxşı dost dostunu yaxşı, pis dost isə pis yola çəkir. Elə yaxşının günəşə, pisin isə kölgəyə bənzədilməsi aforizminin də kökündə bu məsələlər dayanır.

İnsan var ki, tərbiyəsi, mərifəti ilə seçilir. Belə insanın dostu olmağın özü bir xoşbəxtlikdir. Çünki ondan ziyan gəlməz, əksinə hər hansı səhvin də qarşısını almağa qadir xarakterə malik olur. Lakin insan var ki, həyat tərzi heç də xoşagələn deyil. Pis vərdişlərlə malikdir. Belə insanla dostluq etmək, həqiqətən də insanın həyatını kölgə altına salmaq deməkdir. İstər-istəməz səhərdən-axşamadək birlikdə olan insan bir-birinin xasiyyətini də, vərdişini də əxz etməmiş olmayacaq. Odur ki, dost seçimi heç də asan məsələ deyil. Buna diqqətlə, məsuliyyətlə yanaşmaq lazımdır.

Həyatımızın günəş kimi parlaması da, qaranlığın kölgəsinə sığınması da seçdiyimiz dostlarla birbaşa əlaqəlidirsə, bu zaman valideynlərin də sözünü ağsaqqalağbirçək sözü olaraq dinləməli, riayət etməli, həm də öz ağlımızla da yaxşı-yaxşı düşünməliyik. Yoxsa, sonra hər şey gec olur. Bir də baxırsan ki, elə bir quyunun dibinə düşmüsən ki, oradan xilasın mümkün deyil.

## Dost dar gündə tanınar...

Lakin qazax yazıçısı Çingiz Aytmatov zənn edir ki, dost insanın xoş anlarında da tanına bilər. Elə bu aforizmdən yola çıxıb təcrübələrimizin məhsulu olan məsələləri bir daha xatırlamaq yerinə düşər.

Dost dar gündə tanınar, bu bir el misalıdır. Bəli, dostun biri dar günə düşəndə, yəni həyatında hər hansı bir xəstəliklə, problemlə üzləşəndə, sağlamlığını, var-dövlətini itirəndə dostunun əsl üzünü görə bilir. Bu zaman yaxşı dost onun yanında olur, bir tikə çörəyini belə dostu ilə bölüşür, düzgün seçilməyən dost isə onunla münasibətləri kəsir. Deməli, bu dost düzgün seçilməyən dostlar kateqoriyasına daxildir.

Dostlar yaxşı gündə də bəlli olur deyimində məntiqli bir məna var. Dəfələrlə təsadüf etmişik ki, dostun biri yüksək vəzifəyə qalxır və yaxud özünə ev, maşın alır, dostu bütün bunlara gözə bilmir, paxıllıq hissi dostluq münasibətlərinə kölgə salır. Bəli, dostun yaxşı günündə tanınan dostlar isə bax, bu kateqoriyadandır.

Düşünürəm ki, dostluqda paxıllıq, xəbislik kimi xüsusiyyətlər varsa, bu dostluğun davam etməsi mümkün olmayacaq. Çünki paxıllıq və xəbislik bir yerdə dostluğu qılınc kimi doğrayacaq, münasibətləri sonlandıracaq. Odur ki, yenə də ata-babalarımızın məsləhətinə gələk, dost seçimini düzgün edək ki, yanılanda ürəyimiz də yanmasın.

## Real dost, yoxsa ChatGPT

Müasir dövrümüzdə dostluq münasibətləri bir qədər dəyişilib. Texnologiyanın inkişafı deyəsən, yeni dostluq münasibətləri də təqdim edir. İndi əksər gənc ChatGPT ilə dostluq edir. Ürəyinin sirrini ona açır. O da ona məsləhət və tövsiyə verir.

Dostluq haqqında yuxarıda danışarkən dostların müxtəlif bədənlərdə eyni ruh olduğunu vurğuladıq. Belə isə sadəcə kompüter proqramı və dəmir parçası olan ChatGPT-nin ruhu yoxdur axı. O, insana necə dost ola bilər? Sənin müraciətlərinə bir zamanlar insanların yazdıqları əsasında formalaşan internet arxivinə istinad etməklə cavab verən ChatGPT-yə dost deyən gənc, onu yaradan insanla nə üçün dostluq etməyəsən? Axı o, insan beyninin, ideyasının məhsuludur. İnsan isə yaranmışların alisidir. Belə isə insan övladının dostu da insan olmalıdır. Özümüzü müasir texnologiyanın gözqamaşdırıcı məhsulları ilə aldatmayaq. Düzdür, onların da həyatımızda rolu böyükdür. Lakin bu, o demək deyil ki, həyatımızı texnologiyanın sərəncamına verməliyik. Xeyr, birinci bizim həyatımız-təbii, real. Sonra qeyri-real olanlar. Bunu unutmayaq ki, sabah gec olacaqlar üçün təəssüf etməyək.

Bir aforizmdə deyildiyi kimi, dostluq iki ruhun evlənməsidir; bu izdivacda boşanma, yaxud ayrılığı dilə gətirmək belə günahdır. Bu ruhdan ayrılıb qeyrisi ilə dost olmaq günahkar olmaq deyilmi?..

30 iyul Beynəlxalq Dostluq Günüdür. Bəlkə dostluq münasibətlərini bir daha gözdən keçirək?..

***Mətanət Məmmədova***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Azərbaycana ən çox hansı ölkələrdən avtomobil gətirilir?

*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*





“Azərbaycanda avtomobil parkının genişlənməsi və yenilənməsi ilə bağlı avtomobil idxalında ciddi artım müşahidə olunur. Əhali arasında həm yeni, həm də işlənmiş avtomobillərə olan tələbatın artması, eyni zamanda nəqliyyat sektorunda gedən texnoloji yenilənmələr, ölkəyə gətirilən avtomobillərin sayının yüksəlməsinə səbəb olur”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib.

Onun sözlərinə görə, hazırda Azərbaycana avtomobil idxalı əsasən müəyyən ölkələrdən həyata keçirilir və bu ölkələrin seçimi bir neçə mühüm faktora əsaslanır: avtomobilin qiyməti, texniki vəziyyəti, gömrük xərcləri, ehtiyat hissələrinin mövcudluğu və servis imkanları: ”Azərbaycana ən çox avtomobil idxal olunan ölkələrin siyahısında Cənubi Koreya, Yaponiya, Almaniya, Birləşmiş Ştatlar və Çin başda gəlir. Ən çox avtomobil idxal olunan ölkələr sırasında Cənubi Koreya birinci yerdə qərarlaşıb. Buradan əsasən ”Hyundai” və ”Kia” markaları gətirilir. Bu avtomobillər həm münasib qiymətə, həm də yanacaq sərfiyyatının az olması və ehtiyat hissələrinin əlçatanlığı baxımından üstünlük təşkil edir. Xüsusilə taksi fəaliyyəti və ailə istifadəsi üçün bu modellər geniş yayılıb. İkinci yerdə Yaponiya qərarlaşıb. Bu ölkədən Azərbaycana əsasən ”Toyota”, ”Honda”, ”Nissan” kimi markalar gətirilir.

Bu avtomobillər texniki baxımdan daha dözümlü, uzunömürlü və sürücü üçün rahat idarəetmə imkanlarına malikdir. Üstəlik, bəzi modellərin hibrid olması onları ekoloji və iqtisadi baxımdan daha sərfəli edir. Almaniyadan isə daha çox ”Mercedes-Benz”, ”BMW”, ”Volkswagen” kimi lüks və orta seqmentli avtomobillər idxal olunur. Bu avtomobillər keyfiyyəti, sürət qabiliyyəti və komfortu ilə seçilsə də, həm satış qiyməti, həm də texniki xidmət baxımından digərlərinə nisbətən bir qədər yüksək kateqoriyaya aiddir. Amerika Birləşmiş Ştatları da son illər avtomobil idxalında önəmli ölkələrdən biridir. Xüsusilə onlayn hərraclar vasitəsilə ”Chevrolet”, ”Ford”, ”Tesla” kimi markalar Azərbaycana gətirilir. ABŞ-dan gətirilən avtomobillərin bir çoxu qəza görmüş və ya yenidən bərpa olunmuş olsa da, onların bazardakı qiyməti daha münasib olur.

Son dövrlərdə Çin də avtomobil idxalında ciddi yer almağa başlayıb. ”Chery”, ”Geely”, ”Haval” kimi markaların həm qiymət baxımından sərfəli olması, həm də müasir dizayna və texnologiyaya sahib olmaları bu avtomobillərin Azərbaycanda maraqla qarşılanmasına səbəb olub. Gələcəkdə avtomobil idxalında tendensiyalar dəyişə bilər. Xüsusilə elektrik və hibrid avtomobillərin bazarda payı artdıqca, Çin və Avropa ölkələrinin bu sahədə rolu daha da güclənə bilər. Eyni zamanda dövlətin gömrük rüsumları və yaş məhdudiyyəti ilə bağlı tətbiq etdiyi siyasət də idxal istiqamətlərinə birbaşa təsir göstərir”.

***Ziya Hikmətoğlu***

# ”Qalatasaray” bu futbolçuya 30 milyon avro qiymət qoydu!




İstanbulun ”Qalatasaray” futbol klubu ulduz futbolçusu Barış Alper Yılmaz üçün 30 milyon avro tələb edir. Barış Alper Yılmazı transfer etmək istəyən klub 30 milyon avro ödəniş etməli olacaq. Klub rəsmiləri bildiriblər ki, futbolçunun transfer məbləğində güzəşt etməyəcəklər.

Türkiyə mediası iddia edir ki, gənc futbolçu ilə İtaliya, İngiltərə və Almaniya klubları ciddi şəkildə maraqlanırlar.

# Diqqətli olun: bu gün temperatur 41 dərəcəni keçəcək!

Azərbaycanda iyulun 30-da 41 dərəcə isti gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bakıda və Abşeron yarımadasında havanın yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 23-27° isti, gündüz 33-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80 %, gündüz 40-45 % təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, gecə və səhər isə duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 35-40° isti, bəzi yerlərdə 41°-dək isti, dağlarda gecə 15-20° isti, gündüz 28-33 isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**